




# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ

## DÖVLƏT BAYRAĞI



Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraq qadağan edilmiş və sovet bayrağı ilə əvəz olunmuşdur.

Sonralar Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırılmışdır. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikasının dövlət suverenliyinin rəmzlərindən biri olan üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.



## DÖVLƏT GERBİ

Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində həmin gerb qəbul edilməmişdir. Sonralar - 1990-cı ildə Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haqqında vəsatət qaldırılmışdır. Müsabiqə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə elan olunmuşdur. 1991-1992-ci illərdə müsabiqəyə Dövlət gerbinin onlarla layihəsi təqdim olunmuşdur. Müzakirələr zamanı 1919-1920-ci illərdə hazırlanmış layihələrdən birinin qəbul edilməsi ilə bağlı təkliflər də səslənmişdir.

Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir. Dövlət gerbi haqqında Əsasnamə və ona əlavə edilmiş təsvir 1993-cü il aprelin 5-də təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində isə alov təsviri vardır.

Gerbin rəngli təsvirindən ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları habelə qalxanın düymələri və palıd qozaları qızılı rəngdədir.

## DÖVLƏT HİMNİ

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin Milli Himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın Milli Himnini qəbul etməyə imkan vermədi. Azərbaycan Respublikasının ilk Dövlət Himni 1945-ci ildə Azərbaycan SSR Sovet İttifaqının tərkibində olarkən qəbul edilmişdir (sözləri S. Vurğun və S. Rüstəmin, musiqisi Ü. Hacıbəyovun) 1992-ci il mayın 27-də parlament ”Azərbaycan Respublikasının Dövlət Himni haqqında” Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş təntənəli ”Azərbaycan marşı” Azərbaycanın Dövlət Himni kimi təsdiq edildi.

Musiqisi: **Üzeyir Hacıbəyovun,**
Sözləri: **Əhməd Cavadındır.**

**Azərbaycan! Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üçrəngli bayrağınla məsud yaşa!**
**Minlərlə can qurban oldu,**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər!**
**Hərə bir qəhrəman oldu!**
**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**
**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə,**
**Cümlə - gənclər müştaqdır!**
**Şanlı Vətən! Şanlı Vətən!**
**Azərbaycan! Azərbaycan!**

# Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı artıq bunlar fikri istedada malik olan nadir adamlardır

**Heydər Əlirza oğlu Əliyev**



**Zərifə Əziz qızı Əliyeva**
Azərbaycan SSR-nın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki



**Heydər Əlirza oğlu Əliyev**
Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının üçüncü Prezidenti "Ulu öndər" və "Azərbaycan xalqının ümummilli lideri" titullarının rəsmi daşıyıcısı.

***Mənalı ömür yaşamaq hər insanın taleyinə yazılmır. Elə insanlar var ki, onların ömür yolu gələcək nəsillərin həyatına işıq saçır, xalqa tükənməz bir xəzinə bəxş edir.***

Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gəlmiş Zərifə xanım Əliyeva da belə seçilmiş insanlardan olmuşdur. O, günəş qədər parlaq ürək sahibi, yüksək mənəviyyat, daxili zənginlik simvolu idi. Qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı Zərifə xanım Əliyeva.

Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri xiyabanda - atasının məzarə yanında dəfn olunmuşdur. Bütün ömrünü insanlara xidmət işinə sərf etmiş bir insanın bu gün aramızda olmamasına inanmaq çox çətindir. Fəqət, görkəmli alimin, xeyirxah insanın, qayğıkeş ananın adının qədirbilən xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün təsəlliverici məqamdır.

***Azərbaycan xalqının şanlı oğlu, qüdrətli dövlət xadimi, dahi siyasətçi Heydər Əliyevin 2016-cı il mayın 10-da anadan olmasının 94-cü ildönümü tamam olur.***

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991 - 1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda ölkədə siyası böhranının son dərəcə kəskinləşməsi ilə əlaqədar o zamankı rəhbərlik Heydər Əliyevi Bakıya dəvət etmişdir. Heydər Əliyev 1993-cü il 15 iyunda Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.







# "Varlı və kasıb uşaq"

## (Ağıllı yoxsul axmaq varlıdan yaxşıdır)



***(İbrətamiz hekayə)***

Rəvayətə görə bir varlının və bir kasıbın uşaqları eyni sinifdə oxuyurmuş. Zəngin olan kişinin oğlu hər zaman dərslərindən aşağı qiymət alar və müəllimi tərəfindən danlanarmış. Kasıbın oğlu isə əksinə yüksək qiymət alar və hər zaman yaxşı oxuduğuna görə tərifllənərmiş. Bu hadisə dəfələrlə təkrarlandığından varlının oğlu bundan acıq edib atasına şikayət edir.

Bir gün zəngin bəyzadə öz oğlunu da götürüb müəllimi danlamağa gələr ki, nədən onun oğlu hər dəfə töhmət alar, danlanar, ancaq kasıbın övladı sevilər.İçəri daxil olaraq müəllimi görcək sərt şəkildə şikayətinə başlayır. Beləcə müəllim və varlı şəxs arasında maraqlı dialoq alınır.

Acıqlı halda deyir ki, mənim oğlum zəngin, atası böyük nüfuza malik bəs niyə o yoxsul adamın oğlu mənim oğlumdan yaxşı qiymət alır, təriflənir...

Müəllim: - Bilmək istəyirsinizmi səbəbi?

Zəngin bəyzadə :- Bəli!

Müəllim:- Biz nə qədər desək belə fərqi bilməyəcəksiniz, odur ki, gözünüz qarşısında onlara bir tapşırıq verəcəm və hansı düzgün həll edərsə onda bilinəcək iki uşağın fərqi.

Müəllim uşaqlara eyni tapşırıq verib deyir ki, sabaha kimi hazır olsun tapşırıq belədir. Qonşunun hinindən yumurta götürmək, amma bu yumurta elə götürülməlidir ki, hec kim görməsin.

Uşaqlar evə gəlir səhər olur. Həm kasıb, həm də zəngin valideynlərin hər ikisi uşaqları ilə bərabər məktəbə gəlir.

Müəllim soruşur tapşırığımı yerinə yetirdinizmi?

Zəngin balası ucadan fərəh hissi ilə: - Bəli müəllim! Mən yumurtanı heç kim görmədən götürə bildim. Yumurtanı müəllimə verir.

Müəllim kasıb şagirdindən soruşur sən niyə dinmirsən yoxsa tapşırığı yerinə yetirməmisən?

Uşaq məyus halda: - Xeyr müəllim...

Müəllim: - Niyə?

Uşaq: - Müəllim vallah necə dəfə girdim, hinə həm gündüz, həm qaranlıqda ha calışdım ki, yumurtanı götürəm, amma məni kimsə görürdü. Ona görə də götürə bilmədim...

Müəllim:- kim?

Uşaq: -Vicdanım, Allahım həm gecə, həm gündüz, həm işıqda, həm qaranlıqda məni izləyirdi.

Müəllim üzünü zəngin bəyzadəyə tutub deyir: - indi gördünüzmü sənin tərbiyə verdiyinlə saymadığın, ayağının tozu qədər qiymət vermədiyin yoxsulun verdiyi tərbiyəni? Əsas var-dövlət deyil, əsas insanlıq və ağıldır.

# "40 ilin zəhmətkeş müəllimi"

# Muxtarova Tamella





**“Odur, insanlara düz yol göstərən,**
**Gözünün nurunu gözlərə verən.**
**Həyatda əyrini, doğrunu görən,**
**Dünyanın möhtəşəm düzüdür, müəllim”**

***(N.Kəsəmənli)***

Ömrünü şam kimi şagirdlərinin yolunda gilə-gilə əridən, onların parlaq gələcəyi naminə həvəslə çalışan və ömründən ömürlərə pay verən, qəlblərə nur çiləyən müəllim! Müəllim ömrü elə bir ömürdür ki, gözlərinin nurunu, ürəyinin hərarətini təmənnasız olaraq şagirdləri ilə paylaşır, onların gələcək həyat yollarında nurlu mayaka çevrilir. Çəkdiyi zəhmətin bəhrəsini gördükcə, sevimli şagirdlərinin xoş sorağını aldıqca qəlbi fərəhlənir, ürəyi qürurla dolur.

Dünyada gözəl, nəcib peşələr çoxdur. Həkim insanların sağlamlığının keşiyində dayanır, xəstələrə şəfa verir. Mühəndis fabrik və zavodları işlədir, hündür binalar ucaldır, yollar çəkir, körpülər salır. Kosmonavt fəzanı fəth edir, müxtəlif planetlərin sirlərini öyrənir…Fəqət bütün peşələrin fövqündə dayanan müqəddəs bir peşə də var. Bu, müəllimlikdir. Həkim də, mühəndis də, kosmonavt da seçdikləri sənətin sirlərini məhz müəllimdən öyrənirlər. Müəllim elm, bilik xəzinəsinin qapısını insanların üzünə açan bir varlıqdır. Bu xəzinəyə inamla daxil olanlar həyatın enişli-yoxuşlu yollarında büdrəmir, öz biliyi və əməlləri ilə cəmiyyətin inkişafına töhfələr verirlər. Elə buna görə də dünyada müəllim əməyinin bənzəri yoxdur. Əgər bu gün biz bəşəriyyətin çatdığı yüksək inkişaf səviyyəsi, elmi-texniki nailiyyətlər barədə məmnunluqla söhbət açırıqsa, buna görə ilk növbədə müəllimlərə minnətdar olmalıyıq. İnsan cəmiyyətinin əzəli və sonu müəllim əməyi ilə bağlıdır.

”Çağdaş Təhsil” jurnalının növbəti jurnal qəhrəmanlarından biri də Muxtarova Tamella müəllimdir ki, o öz əziyyəti və əzmi ilə əməyinin, tərcümeyi halının işıqlandırılması məqamını haqq edib.

Həm öz təhsilinin, həm məxsus olduğu cəmiyyətin inkişafı üçün öz zəhməti ilə daim çalışmış, əziyyət çəkmiş müəllimlərdən biri də Muxtarova Tamella müəllimdir. Muxtarova Tamella İsa qızı 1958-ci ildə Azərbaycanın ən dilbər guşələrindən biri olan Şuşa şəhərində anadan olub. Orada böyüyüb başa çatıb. Orta təhsilini Şuşada uğurla başa vuran Tamella müəllim məktəbi bitirdikdən sonra Stephanakert Pedaqoji İnstituna qəbul olmuşdur. İnstitun Dil-Ədəbiyyat fakultəsindən məzun olduqdan sonra pedaqoji fəaliyyətinə Bərdə şəhər 3 saylı tam orta məktəbdən başlayaraq öz biliyini şagirdlərinə ötürüb. Bu illər ərzində onun çoxlu sayda yetirmələri, uğurlu məzunları olub. Tamella müəllim 2004-cü ildən Akademik Zərifə Əliyeva adına Texniki fənnlər məktəb-liseyində təşkilatçı müavin olaraq işləyir. O,öz işini sevdiyini vurğulayır, həmçinin, qeyd edir ki, məktəbinin uğur qazanması üçün əlindən gələni əsirgəmir. Tamella müəllimin pedaqoji fəaliyyət göstərdiyi məktəb-lisey respublikamızda uğurları, çoxsaylı savadlı məzunları ilə tanınan məktəblərdəndir. Məktəbdə mütəmadi olaraq xüsusi günlərə,bayram günlərinə həsr olunmuş tədbirlər keçirilir ki, Tamella müəllim özü də təşkil olunmuş dövlət tədbirlərində aktiv iştirakçıdır.

Tamella müəllim, fəaliyyət göstərdiyi məktəbin daim dövlət nəzarətində olduğunu qeyd edir. Bildirir ki,məktəbləri bu il Daxili İşlər Naziri cənab Ramil Usubovun səyi nəticəsində yüksək səviyyədə təmir olunub, köhnə məktəb yeni təmirli forma alıb. O,həmçinin Bərdə rayon İcra başçısı Vidadi İsayevin, Təhsil şöbəsini müdiri Rzaqulu Şərifovun adlarını çəkərək ,diqqətlərinin daim məktəb üzərində olduğunu vurğulamışdır. Tamella xanım fəaliyyətdə olduğu məktəb haqqında məlumat verərkən məktəbin direktoru Vidadi Süleymanovun adını və xidmətini qeyd etmişdir. Onun son dərəcə humanist,savadlı, öz işinin öhdəsindən gələn bir insan olduğunu vurğulamışdır. Tamella müəllim məktəb kollektivi adından bu işdə əziyyəti keçən hər kəsə dərin təşəkkürünü bildirir və məktəbin uğurlarının bol olmasını diləyir.

Tamella xanım ailəlidir,3 övladı var. Oğlu Kənan polisdir. Böyük qızı Günay ailəlidir, 3 övladı var. Tamella xanımın böyük nəvəsi hərbi xidmətdədir.

40 ildir ki, Təhsil işçisi olan Tamella müəllim Azərbaycan təhsilinə böyük töhvələr vermişdir. Öyrətməkdən yorulmadığını bildirən Tamella müəllimin bir arzusu var, o da doğulub boya-başa çatdığı Şuşa şəhərinin düşmən tapdağından azad olunmasıdır ki, o günün tezliklə gerçəkləşməsini arzulayır.

Biz də bu arzuya amin deyirik.









başa vurduğuna görə məktəb rəhbərliyi tərəfindən ”Diplom”la təltif olunub. Hər bir şagird kimi Nərminin də gələcək həyatı ilə bağlı arzuları var. O, ən müqəddəs və ali peşə olan ingilis dili müəllimi olmaq və gələcək nəsillərə bu peşə ilə öz töhfələrini vermək istəyir. Bu məqsədinə çatmaq üçün daim oxuyur inanır ki, öz məqsədinə çatacaq. Asudə vaxtlarını isə bədii kitablar oxumaqla və rəsm çəkməklə məşğul olur. Axı o dərk edir ki, bədii kitablar nitq qabiliyyətini və bədii təxəyyülünü, rəsm çəkmək isə fitri istedadını təkmilləşdirir. Nərmingilin ailəsi 3 nəfərdən ibarətdir.

Atası Səfərov Yaşar Yelmar oğlu 29 may 1976-cı ildə Ağdamda anadan olub. Orta təhsillidir. Hazırda sürücü işləyir. Bir ata kimi övladlarının sağlam və cəmiyyətə yararlı şəxs kimi yetişməsini arzulayır.

Anası Səfərov Aybəniz Pavel qızı 3 yanvar 1975-ci ildə Ağdamda anadan olub. Orta-ixtisas təhsillidir. Ağdam rayon Texniki Kollecinin ibtidai sinif müəllimliyini bitirib. Hazırda Ağdam rayon 88 saylı tam orta məktəbdə ibtidai sinif müəllimi işləyir. Daim şagirdlərlə işlədiyindən və təhsil işçisi olduğundan öz övladlarına da daim elmbilik aşılayır və onların sağlam və təhsilli olmasını arzu edir.

Hər bir valideyn kimi Yaşar bəy və Aybəniz xanım övladlarının gələcəyini parlaq görmək istəyirlər.

Qardaşı Səfərov Elmar Yaşar oğlu 1 avqust 2012-ci ildə Bakı şəhərində anadan olub. Hazırda 1-ci sinifdə oxuyur. Elmar da bacısı kimi dərs əlaçısıdır.

Ömrünün mənasını elmlə, təhsillə keçirən Nərmin balamıza kollektivimiz və işçi heyətimiz adından müvəffəqiyyətlər arzulayırıq. Qoy Nəzrin balamız böyüyüb Vətənə, millətinə layiqli övladlardan olsun. Yolun açıq olsun!










# "Məktəbin ən istedadlı adını alan şagird"

# SƏFƏROVA NƏRMİN





**”İnsan qılıncın kəskinliyi ilə qəhrəman ola bilməz ağlın kəskin olması lazımdır”**

**(Həzrəti Əli)**

Mərhum prezidentimiz Heydər Əliyev gənclər xalqımızın milli mənəvi dəyərləri əsasında tərbiyələnməlidir fikrini irəli sürürdü. O, qeyd edirdi ki, gənclər arasında aparılan iş bu istiqamətdə aparılmalıdır. Bizim elmimiz inkişaf etməlidir. Elmimizi siz gənclər inkişaf etdirəcəksiniz. Əlbəttə bu fikir tamam doğrudur. Bu gün gənclər dövlətin əsas hərəkətverici qüvvəsidir. Hər bir savadlı gənc çalışır ki, yeni bilgi əldə etsin təhsilini biliyini artırsın. Bu yolda irəliləyən jurnalımızın növbəti savadlı, çalışqan şagirdi Səfərova Nərmin Yaşar qızıdır.

Səfərova Nərmin Yaşar qızı 16 sentyabr 2008-ci ildə Bakı şəhərində anadan olub. Həyatın vacib başlanğıcı olan təhsil həyatına 2014-cü ildə Ağdam rayon 88 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmaqla başlamışdır. Hazırda həmin məktəbin 5-ci sinif şagirdidir. Mehriban və qayğıkeş müəllimləri tərəfindən ona tədris olunan fənləri maraqla və məharətlə mənimsəyən Nərminin ən sevimli fənləri Azərbaycan dili, Azərbaycan tarixi ,ədəbiyyat, həyat bilgisi, ingilis dili və təsviri incəsənətdir. Almaz ,Maral, Aytac, Sevda, Nəsibə, Minarə adlı müəllimlər onun təhsil almasında əvəzsiz rol oynayırlar. Nərmin yaşının az olmasına baxmayaraq çox məntiqli və ağıllı şagirddir. O, qeyd edir ki, müəllimlərinin verdiyi tapşırıqları vaxtı-vaxtında edir və bütün fənlərə məsuliyyətlə hazırlaşır. Uğurlarından danışdıqda isə Nərmin bildirdi ki, uğurları çox olub. İlk uğuru elə məktəbə ilk qədəm qoyanda, yəni 2014-cü ildə olub. Azərbaycan Respublikasının Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən məktəblərarası bilik yarışında istedadına və nümunəvi şagird olduğuna görə ”Məktəbin ən istedadlı” şagirdi adını alıb. 2015-2016 -cı tədris illərində dərs əlaçısı olduğuna görə məktəb rəhbərliyi tərəfindən ”Fəxri diplom”la təltif olunub. 7 iyun 2016-cı ildə Heydərçi Gənclər Təşkilatının təşkilatçılığı ilə “Bizim məqsədimiz müstəqil Azərbaycan üçün daha bilikli , daha zəkalı gənclər hazırlamaqdır” yarışında yaşıdları arasından fərqləndiyinə, dərslərini əla qiymətlərlə oxuduğuna görə, “Heydərçi gənclər”sırasına daxil olaraq ”Fəxri Diplom”la təltif edilib. 2016-2017-ci tədris ilində Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin 25 illiyinə həsr edilmiş “Şeir” müsabiqəsinin qalibi olduğuna görə məktəb rəhbərliyi tərəfindən ”Diplom”la və kubokla təltif edilib. 10 iyun 2017-ci ildə 15 iyun Azərbaycan xalqının Milli qurtuluş günü və ilin yekunu münasibətilə ”Fəxri Fərman”la təltif edilib. 2017-2018-ci ildə tədris illərində ibtidai təhsili əla qiymətlərlə



# "Gələcəyin modelyer- dizayneri"

# Əliyeva Fatimə





**“Qədimdə insanlar elmi kamilliyə yetmək naminə öyrəndikləri halda, bu gün onu dünyanı fəth etmək naminə öyrənirlər”**

***(Konfutsi)***

Qədim zamanlardan elmdə nailiyyətlər əldə etmək üçün çalışıblar. Təbiəti öyrənib, bununla cəmiyyəti məlumatlandırmağa səy göstəriblər.

Hazırda dövlət savadlı kadrların hesabına iqtisadi, hərbi və elm sahəsində irəliləməyi qarşıya məqsəd qoyub. Yalnız savadlı, təhsilli gənclərin hesabına bu sahələrdə uğurlar qazanmaq, beynəlxalq arenada Azərbaycanı layiqincə təmsil etmək mümkündür. Yalnız savadlı cəmiyyətlə irəli getmək, uğurlara nail olmaq, ölkəni tanıtmaq mümkündür. Elmin vacibliyini hələ qədim zamanlardan dərk ediblər.

Jurnalımızın bu sayında Əliyeva Fatimə haqqında məlumat verəcəyik, onun tərcümeyi halına işıq salınacaq. Əliyeva Fatimə Kənan qızı 2012-ci il iyul ayının 26-da Bərdə şəhərində ziyalı ailəsində dünyaya gəlib. 2018-ci ildə Fatimə Akademik Z.Əliyeva adına Texniki fənlər təmayüllü məktəb-liseydə təhsil almağa başlamışdır. Hazırda Fatimə həmin məktəbin 1 d pilot sinifində təhsilini davam etdirir. Məktəb həyatına təzəcə qədəm qoyan Fatimə öyrənməyə çox meyillidir. O, azyaşlı olmasına baxmayaraq müəllimlərin sevgisini qazanmışdır. Rəsm çəkməyi çox sevən ,gözəl əl qabiliyyəti olan Fatimə gələcəkdə məhşur modelyer-dizayner olmaq istəyir. Dərslərinə hər zaman hazırlıqlı olan Fatimə ən çox sevdiyi müəllimi sorğusuna Nərimanova Vəfanın adını çəkmiş. Vəfa müəllim balaca Fatimənin ilk müəllimidir. Evdə ailəsinin qayğısını görən uşaqların məktəblərə uyğunlaşması çətin olur. Lakin müəllim mehriban və qayğıkeş olarsa şagirdləri məktəbə cəlb edə bilər. Dərs oxumağı çox sevən Fatimə boş vaxtlarında müxtəlif, rəngarəng şəkillər çəkir, müəllimlərinin və ailəsinin tərifini alır. Onun ailəsi qızlarının istedad və savadına dəstəkdirlər, hər zaman çalışırlar ki, onun gələcəyi parlaq və uğurlu olsun.





Fatimənin ailəsi 4 nəfərdən ibarətdir. Atası Əliyev Kənan hüquq mühafizə orqanlarında polis nümayəndəsidir. Anası Akademik Z.Əliyeva adına məktəbdə ingilis dili müəllimi işləyir. Qardaşı Əliyev Fərid məktəblidir,4-cü sinifdə təhsil alır. O,da məktəbin əlaçı,seçilən şagirdlərindəndir. Fatimə məsuliyyətli olması ilə qardaşından heç də geri qalmır.

Biz də öz jurnalımız adından Fatiməni və qardaşını təbrik edir, gələcək həyatlarında uğur və nailiyyətlər diləyirik. Arzu edirik ki, vətənə,millətə layiqli övlad olsunlar, qazandığı uğurlarla daim ailələrinin fəxri olub, başlarını uca tutsunlar.

# "Gənc ancaq yüksək təhsilli pedaqoq"

# Arzu Paşazadə



**"Dünyada hər şeyə dəyər vermək mümkündür, lakin müəllimin əməyinə əsla dəyər verilə bilməz"**
***(Sokrat)***

Müəllim əməyini çox vaxt bağban əməyi ilə müqayisə edirlər. Bağban min bir zəhmətlə yetişdirdiyi ağacın bəhrəsini görəndə sevindiyi kimi, öz yetirmələrinin xoş sorağını alanda müəllimin də qəlbi sevincdən dağa dönür. Müəllim şagirdlərin addımlarını düzgün atmaları naminə yol göstərəni, bələdçisidir. Çünki o bizi yetişdirir, addım-addım irəliləməyimizə təkan verir, pillələrlə zirvələrə aparır. Müəllimin ən böyük istəyi şagirdlərini xeyirxah, təmiz insan kimi tərbiyə etməkdir. "Yerdən bir şey tapanda onu özünüzə götürməyin, sahibinin kim olduğunu soruşun, başqasının əşyasını icazəsiz götürməyin,bir şey istəyəndə "Xahiş edirəm" kəlməsindən istifadə edin, səhv edəndə "Üzr istəmək" və daha neçə-neçə dəyərli nəsihətlər bizim bütün həyat yolumuza işıq salır, gələcəkdə bilmədən edə biləcəyimiz səhvlərdən çəkindirir.

Məhz buna görə müəllim dünyadakı ən şərəfli və məsuliyyətli sənətlərdən biridir. Çalışdığı məktəbdə öz savadı, şagirdlərinə fədakarlığı ilə seçilən, müəllimlərin, valideynlərin, şagirdlərin sevgisini və hörmətini qazanmış müəllimlərdən biri də Paşayeva Arzu müəllimdir. Paşayeva Arzu Budaq qızı 1984-cü il oktyabr ayının 28-də Sumqayıt şəhərində anadan olmuşdur. Öncə Sumqayıt şəhər 56 saylı "Baharuq" uşaq bağçasına, sonra isə 1991-ci ildə Sumqayıt şəhərində yerləşən 28 saylı orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. Arzu müəllim uşaqlıqdan oxumağa həvəsli olub və 2001-ci ildə orta məktəbi uğurla bitirərək, həmin ildə Azərbaycan Müəllimlər İnstitunun Sumqayıt filialında "İbtidai təhsilin metodikası və pedaqogikası" fakultəsinin birinci kursuna qəbul olur. O, 2005-ci ildə ibtidai sinif müəllimi olaraq ali təhsilini uğurla başa vuraraq təhsilini davam etdirir. Görünür, oxumaqdan, öyrənməkdən bezməyən müəllim 2006-cı ildə Azərbaycan Müəllimlər İnstitunun magistratura pilləsi üzrə "Məktəbəqədər təhsilin metodikası və pedaqogikası" fakultəsinə daxil olaraq, 2008-ci ildə magistratura təhsilini də uğurla başa vurur. Arzu müəllim 2013-cü ildən ailə vəziyyəti ilə əlaqədar olaraq Bərdə rayonuna köçüb. 2013-cü ildə DİM tərəfindən keçirilən Müəllimlərin İşə Qəbulu imtahanında iştirak etmiş, 41 bal toplamışdır. Elə həmin ildən Arzu müəllim Bərdə rayon Tumaslı kənd ümumi orta məktəbdə ibtidai sinif müəllimi işləyir. Çalışmağa başladığı ilk gündən Arzu müəllimin həyatdakı ən böyük amalı gələcəyimiz olan şagirdlərin düzgün şəkildə təlim və tərbiyəsi ilə məşğul olmaq, onları ciddi şəkildə təhsilə yönəltmək olub. O, sevgisini, biliyini, illərin zəhmətini, özünün qazandığı təcrübəsini sırf şagirdlərinin hər zaman irəlidə olması üçün fəda etməkdən çəkinməmiş və bu gün də bu amalında davam etməkdədir.

Arzu müəllim hər bir şagirdinə təhsillənməyi, yazmağı, oxumağı, dinləməyi və bu həyatda keyfiyyətli şəxsiyyət olmağı öyrədir. Onun bu zəhməti qısa müddət olsa da öz bəhrəsini verir və şagirdlərinin timsalında zəhmətinin hədər getmədiyinin şahidi olur. Arzu müəllim müəyyən uğur və nailiyyətlər əldə etmiş, istedad sahibi olan şagirdləri barədə həmişə iftixar hissi ilə söhbət açır. Bu vaxt, adətən, xoş xatirələr göz önündə canlanır. Arzu müəllimin dediyinə görə şagirdlərinin uğurları, keyfiyyətli insan kimi yetişmələri ona sanki yeni güc verir, onu daha şövqlə işləməyə ruhlandırır. Əmindir ki, qarşıda ona daha böyük uğurlar və nailiyyətlər ilə seçilən yetirmələr nəsib olacaq.

Arzu müəllim ailəlidir. Həyat yoldaşı Paşayev Rasim Arif oğlu inşaat mühəndisidir. Arzu xanımın Paşazadə Arif adında şirin,azyaşlı oğlu var. Bir ziyalı ana kimi, onun parlaq gələcəyi və həyatı naminə çalışır.

Arzu xanımın atası Qədiməliyev Budaq Əhməd oğlu təqaüdçüdür. Anası Qədiməliyeva Mehparə Qoca qızı təqaüdçüdür. Onun Qədiməliyeva Sevda adından bir bacısı var. Onlar bir ailə kimi çox mehriban olmaqla yanaşı, hər zaman təhsilə, elmə önəm verən ailə olublar.

Biz də öz "Çağdaş Təhsil " jurnalımızın redaksiyası adından Arzu müəllimə bol-bol uğur və nailiyyətlər diləyirik. Arzu edirik ki, nəinki çalışdığı,yaşadığı rayonda , hətta bütün respublikamızda sayılıb-seçilən müəllimlərdən olsun. Aldığı təhsil daim yoluna işıq salsın, parlaq günəştək daim şagirdlərinin həyatına nur saçsın. Uğuru və istedadlı yetirmələri bol olsun!









oxumaqla bərabər təlim-tərbiyəsi ilə seçilən Elmarın ən sevimli fənnidir. Əlbəttə bu fənni ona sevdirən sinif müəllimi Nərgiz müəllimin onun qəlbində xüsusi yeri var. Ona qələm tutub, yazı yazmağı, oxumağı öyrədən Nərgiz müəllim olmuşdur. Nərgiz müəllim qayğıkeş, peşəkar müəllimdir. O, şagirdlərinin yaxşı oxuması ,vətənə, millətinə layiqli övlad olmaları üçün əlindən gələni əsirgəmir. Elmar qeyd edib ki, Nərgiz müəllimin ona çəkdiyi əziyyəti heç vaxt unutmayacaq. İlk uğuru məktəbəqədər hazırlıq kursunda olub. Elmar balamız Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə məktəbəqədər hazırlıq kursunda tapşırıqları uğurla yerinə yetirdiyinə və ilkin bilik və bacarıqlara yiyələndiyi üçün "Uğur diplomu" ilə təltif edilmişdir. Elmarın ən böyük arzusu gələcəkdə polis olmaqdır. Xalqına ,millətinə , ədalətlə xidmət etməyi qarşına məqsəd qoyan Elmar inanır ki, bu məqsədinə nail olacaq. Asudə vaxtlarını televizora baxmaqla, telefonda müxtəlif çəkiliş proqramlardan istifadə edib maraqlı videolar düzəltməklə və idmanla məşğul olmaqla keçirir.

Elmara hər zaman arxa-dayaq olan ailəsi onun ən böyük dəstəkçiləridir.

Atası Səfərov Yaşar Yelmar oğlu 29 may 1976-cı ildə Ağdamda anadan olub. Orta təhsili, sürücüdür.

Anası Səfərov Aybəniz Pavel qızı 3 yanvar 1975-ci ildə Ağdamda anadan olub. Orta-ixtisas təhsillidir. Ağdam rayon Texniki Kollecinin ibtidai sinif müəllimliyini bitirib. Hazırda Ağdam rayon 88 saylı tam orta məktəbdə ibtidai sinif müəllimi kimi çalışır.

Hər bir valideyn kimi Yaşar bəy və Aybəniz xanım övladlarının gələcəyini parlaq görmək istəyirlər.

Bacısı Səfərova Nərmin Yaşar qızı 16 sentyabr 2008-ci ildə Bakı şəhərində anadan olub. Hazırda 5-ci sinifdə oxuyur. Nərmin hər zaman qardaşının dərslərində ona köməklik edir, çətinlik çəkdiyi yerləri ona başa salır.

Redaksiyamız adından Elmar balamıza bu uzun və mənalı təhsil həyatında uğurlar arzulayırıq. Hər zaman qazandığı nailiyyətləri ilə ailəsinin, müəllimlərinin fəxri olsun.








# " Uğur diplomlu əlaçı şagird"

# SƏFƏROV ELMAR







**"Ağıllı baş hər şeydən mənfəət götürər"**
***(atalar sözü)***

Elm öyrənməyin bünövrəsini oxumaq və araşdırmaq təşkil edir. Peyğəmbərimizə (s.ə.s) peyğəmbərliyin başlanğıcında "oxu" deyə əmr edilməsi də bunu göstərir. Gəlin "Ələq" surəsinin bu ayələrini xatırlayaq:

• Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir!

• O Rəbbin ki, qələmlə yazmağı öyrətdi.

**O Rəbbin ki insana bilmədiklərini öyrətdi"**
***("Ələq" surəsi)***

Ayə əvvəlcə yaradılış möcüzəsinin Allaha iman şüuru ilə oxumasını əmr edir. Sonra da insanın yaradılışına diqqət çəkir və bu yaradılış möcüzəsinin araşdırılmasını istəyir. Növbəti ayənin "oxu" əmrini isə "qələm" "öyrətmək, təlim", "bilik, elm" kəlmələri izləyir. Bu, başlanğıcdan sonra insana elm verərək onu məxluqatın ən yüksək məqamına çıxarması Allahın ən böyük lütfüdür. Təkcə elmi deyil, yazmağı da öyrədərək əldə etdiyi elmi hər tərəfə yaymasını, bu yolla tərəqqi etməsini və elmi sonrakı nəsillər üçün qoruyub saxlamasını da təmin edir. Əgər Allah ilham yolu ilə insana qələm və kitabın elmini öyrətməsəydi, insanın elmi qabiliyyət və nailiyyətləri, kəşf və ixtiraları yayılmaz, gələcək nəsillərə çatmazdı. Nəticə etibarilə elmi, texniki, mədəni inkişaf da baş verməzdi.

İnsan əslində elmsizdir, ancaq Allahın lütfü sayəsində elm əldə edir. İnsana hər mərhələdə elm verilmişdir. Və elm qapıları onun üzünə taybatay açılmışdır. Elmi inkişaf, əslində, Allahın istədiyi zaman hiss etdirmədən insana elm vermәsidir. Bu səbəbdən də hər bir elm sahibi verilən elmin əsl mənbəyini bilməli, Allahı öyüb. Ona yönəlməli, biliyindən Allahı xoşnud olduğu şəkildə və yerlərdə istifadə etməlidir. Belə bir elm Allahın köməyi və lütfü ilə insanı Rəbbindən uzaqlaşdırmaz, ona Rəbbini unutdurmaz.

Bu gün həyatda elə insanlar doğulur ki, onlar yaşadığı ömür uzunu doğmalarına oxuduqları təhsil ocaqlarına və ətrafdakılarına uzaqlarına yalnız və yalnız şərəf ləyaqət hörmət və ehtiram gətirirlər. Elə Jurnalımızın bu sayının qəhrəmanı Ağdam rayon 88 saylı tam orta məktəbin 1-ci sinif şagirdi Səfərov Elmar Yaşar oğlu da belə şagirdlərdəndir.

O, 1 avqust 2012-ci ildə Bakı şəhərində anadan olub. 2018-ci ildə Bakı şəhərində Ağdam rayon 88 saylı tam orta məktəbə daxil olaraq təhsil həyatına başlamışdır. Hazırda 1-ci sinifdə oxuyur. Azyaşlı olduğuna baxmaraq Elmar sinifin seçilən şagirdlərindəndir. Məktəbdə yaxşı



# "Döyüşə hazır, biliyə qabil"

# ƏSƏDOV İNTİQAM














**"Kitab bir nəslin digər nəslə mənəvi vəsiyyətidir"**
***(A.İ.Gertsen)***

Müasir dövrümüzdə artıq bir çoxlarımız məşğul insanlarıq. Boş vaxtımızı daha çox kitab oxumağa sərf edirik. Kitabsız ömür boşa verilmiş, həyatı yaşamamış və onu dərk etmədən yola verilmiş ömürdür ki, nə insanın özünə, nə də yaşadığı cəmiyyətə faydası var. Peyğəmbərimiz buyurmuşdur ki, "Beşikdən qəbrədək elm öyrənin" sanki bu sözünü 21 əsrə ehtiva edirmiş. Kitab vasitəsilə insanın oxu qabiliyyəti, bilik və bacarığı, dünyagörüşü, mütaliə etmə qabiliyyəti artır, təkmilləşir. Mütaliənin də ən vacib amillərindən biri mütaliə zamanı insanın düşüncəsinin inkişaf etməsidir ki, bunun da yerini heç nə verməz. Kitab vasitəsilə insanın söz ehtiyatı artır, bilikləri daha da çoxalır.

J.J.Russo demişdir ki "Döyüşdə silah lazım olduğu kimi həyatda da bilik lazımdır."Bu dəyərli fikirləri isə zamanında elm-təhsil yoluna qədəm basmış bütün şagirdlərə öyrətmək lazımdır ki, onlar zamanını hədərə verməyib doğru-düzgün yolu özləri üçün qət etsinlər. Elə məhz təhsili təbliğ etmək məqsədilə jurnalmızın əsas xidmət fəaliyyəti budur ki, istedadlı ,xüsusi bilik və bacarıqlara malik olan şagirdləri tapıb üzə çıxartsın onlara gələcəyə doğru addımlamalarında stimul, motivasiya versinlər. Əsədov İntiqam Ayaz oğlu da belə bacarıqlı, istedadlı şagirdlərdən biridir. Jurnalımızın bu səhifəsində qısa da olsa onun haqqında ətraflı məlumat verəcəyik.

Əsədov İntiqam Ayaz oğlu 8 noyabr 2007-ci ildə Biləsuvar rayonunda anadan olub. 2014-cü ildə Biləsuvar rayon Amankənd tam orta məktəbinə qədə qoyub. Hal-hazırda həmin məktəbin 5-ci sinif şagirdidir. Hər zaman elmə, təhsilə böyük marağı olan İntiqam müəllimlərinin sevimlisinə çevrilmişdir. Ən sevdiyi dərs isə fiziki tərbiyə sevimli müəllimi isə Ramin müəllimdir. Fiziki tərbiyənin böyüməkdə olan gənc nəslin yetişməsində mühüm rolunu qeyd edən İntiqam bildirib ki, uşaqlar fiziki tərbiyə ilə müntəzəm məşğul olduqda həyat üçün zəruri keyfiyyətlər də qazanırlar. Fiziki tərbiyənin şagirdlərin sağlamlığının möhkəmləndirilməsində böyük rolu vardır. İstər elm sahəsi olsun, istərsə də idman sahəsində İntiqamın uğurları çox olmuşdur. O, dəfələrlə medal və diplomlarla təltif edilmişdir. Fuad asudə vaxtlarını maraqlı kitab oxumaqla keçirir. İntiqamın ən böyük arzusu orta təhsilini uğurla başa vurub, polis olmaqdır. Xalqın millətin daim hüquqlarını, mənafelərini qorumaq istəyir. İntiqamın ailəsi 3 nəfərdən ibarətdir.

Atası Əsədov Ayaz 22 dekabr 1984-cü ildə Biləsuvar rayonunda anadan olub. Zəhmətkeş ata hazırda tikinti sahəsində usta işləyir.

Anası Məmmədova Əfsanə 3 avqust 1990-cu ildə anadan olub. Hazırda evdar qadındır. Hər iki valideyn İntiqamı çox sevir və onun taleyinin parlaq və uğurlu olmasını istəyir.

Qardaşı Əsədli Savalan Ayaz oğlu 18 may 2010-cu ildə anadan olub. Hal-hazırda 3-cü sinifdə oxuyur.

Biz də öz adımızdan İntiqam balamıza bu uzun həyat yolunda uğurlar arzulayırıq. Öyrəndiyi elm onun bacarıq və imkanları ilə birləşib ona nailiyyətlər qazandırsın.

# "Tarixsevər araşdırmaçı"

# Şükürov Nahid







**“Pinəçinin bir cüt ayaqqabını pis tikməsi bir nəfər afinalıya ziyan vurduğu halda, müəllimin pis işi, pis tərbiyəsi bütün Yunanıstana ziyan gətirir”**

***(Platon)***

Heç kimə sirr deyil ki, müəllim peşəsinin, müəllim nüfuzunun aşağı düşməsində bir sıra müəllimlərin peşəkarlığının az, səriştəliliyinin isə aşağı səviyyədə olması heç də az rol oynamır. Müəllimin peşəkarlığı, peşəsində səriştəli olması təhsil alanların daha yaxşı oxumalarına, təhsil prosesində daha dərin və hərtərəfli bilik, bacarıq və vərdişlər qazanmalarına, mənəvi-əxlaqi dəyərlərə daha mükəmməl yiyələnmələrinə, rəqabət qabiliyyətli mütəxəssislər kimi formalaşmalarına, hər bir vətəndaşın cəmiyyətin layiqli üzvü kimi tərbiyə olunmalarına, milli və ümumbəşəri dəyərləri mənimsəmələrinə əlverişli zəmin yaradır.

Jurnalımızın bu sayında haqqında danışacağımız istedadlı şagirdlərdən biri də Şükürov Nahid Xaliq oğludur. Həm idmançı, həm əlaçı olan bu şagird bacarıqlı və ağıllı məktəblilərdəndir. Şükürov Nahid 2007-ci il sentyabr ayının 11-də Mingəçevir şəhərində anadan olub. Gəlişi ilə ailəsinə sevinc bəxş edən Nahid kiçik yaşlarından bəri tez böyüyüb məktəbə getməyə can atıb, hər zaman məktəbin, müəllimlərin, ilk tədris gününün həsrətini çəkib. Bu arzu ilə böyüyüb məktəb yaşına çatan Nahid 2014-cü ilin sentyabr ayının 15-də Bakı şəhərində yerləşən Laçın rayon Çıraqlı kənd tam orta məktəbin 1-ci sinifində təhsil həyatına qədəm qoymuşdur. Hazırda isə Nahid sözügedən məktəbin 6 b sinifində təhsilini uğurla davam etdirir. Məktəbə getdiyi ilk gündən Nahid müəllimlərinin sevimli şagirdinə çevrilmişdir. Müəllimlərinin dediyinə görə ilk sinifdən dərslərində fəal olmuş, daim öyrənməyə can atmışdır. Dərslərini yaxşı qiymətlərlə oxuyan Nahidin ən sevdiyi, həvəslə oxuduğu fənn tarix fənnidir. O, bu fənni çox sevdiyini, öz ölkəmizin, eləcə də dünya ölkələrinin yaranma və inkişaf tarixlərini, tarixi keçmişlərini öyrənməyə marağlı olduğunu müsahibə alarkən bildirdi. Bütün müəllimlərinə hörmətlə yanaşan Nahid sinif rəhbəri olan İlhamə müəllimin adını xüsusilə çəkir,onun çox mehriban, qayğıkeş və savadlı olduğunu qeyd edir. Dərslərini yaxşı oxumaqla yanaşı, Nahidin idman sahəsində də xüsusi istedadı var, o, idmanın boks növü ilə peşəkar səviyyədə məşğul olur. İstedadlı və çalışqan şa-









# "Gələcəyin peşəkar güləşçisi"

# Vaqif Şərifov







**”Əgər mən başqalarından daha uzaqları görə bilmişəmsə, onda bu, yalnız nəhənglərin çiyinlərində durduğuma görə mümkün olmuşdur”**

***(İsaak Nyuton)***

Biz elmi texniki tərəqqinin vüsət alıb, tüğyan etdiyi əsrdə yaşayırıq. Bu elə bir əsrdir ki, cəmiyyətimizin iqtisadi, mədəni, mənəvi inkişafı, elm və biliklə xarakterizə olunur. Hələ 12-ci əsrdə dahi şairimiz N.Gəncəvi, biliyin, elmin insan həyatında tutduğu yerin məna və əhəmiyyəti haqqında belə deyirdi: “Qüdrət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz”. Bu deyimlə keçid alırıq növbəti sayın qəhramanlarından olan Vaqif Şərifova.

Jurnalımızın bu sayında istedadlı və seçilən şagirdlərdən olan Vaqif Şərifov Vasif oğlunun bu zamana qədərki həyat yolu barədə az da olsa məlumat verməyə çalışacağıq. Şərifov Vaqif Vasif oğlu 27 fevral 2007-ci ildə Kürdəmir rayonunda doğulmuşdur. Gəlişi ilə ailəsinə sevinc bəxş edən Vaqif 2013-cü ildə sentyabr ayının 15-də Kürdəmir şəhər 1 saylı tam orta məktəbin 1-ci sinifində təhsil həyatına qədəm qoymuşdur. Hazırda Vaqif həmin məktəbin 6 ə sinifində təhsilini davam etdirir. Vaqif məktəbə getdiyi gündən müəllimlərinin sevgisini qazanmağı bacarmışdır. Müəllimlərinin dediyinə görə Vaqif ilk gündən dərslərinə həvəslə hazırlaşmış, daim fəal olmuşdur. Vaqifin ən sevdiyi dərslər coğrafiya, fiziki tərbiyə və Azərbaycan dilidir. Bütün müəllimlərinə hörmətlə yanaşan Vaqif ən sevdiyi müəllimlərdən Pərvanə müəllimin, Elvin müəllimin, Tamella müəllimin, adlarını çəkərək, onların çox savadlı və istedadlı olduqlarını bildirir. Uşaq vaxtlarından hərəkətli olan Vaqif idmanın güləş növü ilə peşəkar səviyyədə məşğul olur. Vaqif 2018-ci il “Məhsul KKHKİC Rayon Şurası Gənclər Gününə həsr olunmuş Yunan-Roma Güləşi üzrə 3-cü yer”, “Məhsul KKHKİC Rayon Şurası Yunan-Roma Güləş üzrə rayon birinciliyi”, “Yunan-Roma Güləşi üzrə açıq Kürdəmir rayon birinciliyində 32 kq çəki dərəcəsində” yerlər tutduğuna görə ”Diplom” və medallarla təltif olunmuşdur. İdman sahəsində bu qədər uğurları olan Vaqif gələcəkdə məhşur idmançı olmaq istəyir. Yəni uğurların ardınca gedib onların sayını artırmaq niyyətindədir. Ailəsi də Vaqifin bu arzusunu dəstəkləyir, gələcəkdə dövlətimizin bayrağını dünya ölkələri arasında dalğalandırmağını arzu edirlər.



Vaqifin ailəsi 5 nəfərdən ibarətdir. Atası Şərifov Vasif Vaqif oğlu 42 yaşındadır,sürücü olaraq fəaliyyət göstərir. O, gözəl insan və gözəl ailə başçısıdır. Anası Şərifova Mətanət Azər qızı 42 yaşındadır, evdar qadındır. O, çox mehriban və qayğıkeş xanımdır. Bacısı Şərifova Aytac 18 yaşındadır, Bakı Avrasiya Universitetinin tələbəsidir, Şərifova Şəbnəm isə Vaqiflə eyni məktəbdə 10-cu sinifdə təhsil alır.

Biz də öz “Çağdaş Təhsil ” jurnalımızın redaksiyası adından Vaqifi təbrik edir, uğur və nailiyyətlərinin davamını diləyirik. Arzu edirik ki, səsi daim yüksəklərdən gəlsin. Qazandığı uğurlar daim ömür yoluna işıq saçıb ardını davamlı etsin. Bir ömür ailəsinin və sevdiklərinin fəxri olsun!

# "Qəlbi böyük istedadlı vətənpərvər"

# Məmmədli Şaiq





**"Fikir yalnız özünü doğuranda özünü tapır. Və yalnız özünü tapanda mövcuddur və gerçəkdir"**

***(Georq Vilhelm Fridrix Hegel)***

İnsanın həyatda bioloji rolundan başqa mənəvi rolu da var. Mənəviyyatı olmayan insanın nə özünə, nə də cəmiyyətə faydası olmaz. Məhz elm insana mənəvi zənginlik gətirir, onu kamilləşdirir. Təsadüfi deyil ki, atalarımız da "Elm mərtəbəsi uca olar" deyiblər. Bu mərtəbənin aliliyi ordadır ki, bizi cəhlət quyusundan çıxarıb çox yüksəklərə ucaldır. Məhz bunun sayəsində insan həyatda öz mənliyini tapır. Cahil insan heç vaxt nə özünə, nə də ətrafına fayda verə bilməz. Əksinə, o öz cahilliyi ilə ətrafındakılara da zərər verər. İnsan yaşadıqca arzuları yaşayır və elm kimi arzular da bitməyən, tükənməyən xəzinədir. İstəklər arzuladıqca çoxalır, xərclədikcə bitmir.

Elm, təhsil yolunda inamla addımlamağı özünə hədəf seçən Şaid Məmmədli də jurnalımızın axtarışda olan savadlı və öncül şagirdlərindəndir. Şaiqin tərcümeyi halını işıqlandıranda məlum oldu ki, onun çox arzu və istəkləri olsa da vətənindən dolayı yaranan nisgilli bir arzu illərdir onun kövrək qəlbində məskən salıb, öz haqlı həllini, gerçəkləşməsini istəyir. O arzu hansı ki, hər birimizin üreyində böyük yara açmış, vətən nisgili hopmuş, kədərlərin ən dərini Qarabağ arzusudur.

Məmmədli Şaiq Fəqan oğlu 30 sentyabr 2005-ci ildə Bakı şəhərində sadə bir ailədə anadan olub, böyüyüb boya-başa çatıb. Hər bir şagird kimi Şaiq də tez böyüyüb məktəbə getməyi, əlinə çanta alıb dərs oxumağı arzulayan şagirdlərdən olub. O, 2011-ci ildə 38 saylı Ağdam köçkün tam orta məktəbin birinci sinfinə getməklə bu arzusuna qovuşub. Hazırda həmin məktəbin 8-ci sinif şagirdidir. Onun çox mehriban və sadə bir ailəsi var.Ailədə 3 nəfərdirlər. Atası Məmmədov Fəqan Fazil oğlu 14 may 1966-ci ildə Ağdam rayonunda dünyaya göz açıb. O, 38 saylı Ağdam məktəbində gözətçi işləyərək ailəsinə, elinə xidmət edir, övladlarına baxır.

Anası Məmmədova Sevinc Məhərrəm qızı 30 may 1973-cü ildə Ağdam rayonunda anadan olub və ali təhsillidir. Hazırda 38 saylı Ağdam məktəbində tarix müəllimi işləyərək, gələcəyə savadlı gənclər yetişdirir. Şaiq evin yeganə övladıdır. O dərslərini yaxşı oxuyur və sinfin seçilən şagirdlərindəndir. Ən çox sevdiyi fənlər riyaziyyat, fizika, tarix, ingilis dili və fiziki tərbiyə fənləri, ən sevimli müəllimləri isə ona bu fənləri sevərək öyrədən Sevinc, Nailə, Mehparə, Jalə, Gülnar, Peyman və Muraz adlı müəllimləridir. Onun arzusu təkcə elm, təhsillə bağlı deyil, həm də canı qədər çox istədiyi vətəni ilə bağlıdır. Şaiq vətənpərvər, çalışqan, mehriban və xarakterсə güclü bir oğlandır. Bir qarabağlı yurdunun sonrakı nəsil davamçısı olsa da canına, qanına işləmiş vətən yurdu həsrəti özünü göstərir. O, milli musiqimizi sevən, milli dəyərlərimizi qoruyan bir gəncdir. İndi xalqımızın belə Şaiq kimi məktəblilərə, gənclərə ehtiyacı var. O. özü də bir incəsənət adamıdır. Milli musiqi alətlərinə olan marağına görə 2014-cü ildə 4 saylı Uşaq İncəsənət Məktəbinin tar bölməsinə qəbul olub. Hazırda həmin fakultənin 5-ci sinifində təhsilini davam etdirir. Şaiq tarda mahir ifa etmək qabiliyyətinə və musiqini duymaq istedadına qabildir. Onun tardakı ifası insanı Qarabağa səyahət etdirir desək yanılmarıq. Dərsdə fəallığı müəllimlərinin diqqətindən yayınmır və ona hər zaman dəstək olurlar ki, istedadı və öyrənmək eşqi sönməsin. Şaiq ictimai ədəbi-bədii tədbirlərdə yaxından iştirak edir, bir çox yarışlarda layiqli yerlər tutmuş, ailəsini sevindirmişdir. O, hətta Rəşid Behbudov adına Mahnı teatrında Xalq Çalğı alətləri Ansamblında çıxış edərək tardakı məharətini göstərib.

Şaiq asudə zamanını da çox mənalı dəyərləndirir. Belə ki, boş vaxt tapan kimi kitab oxuyur, musiqi ilə məşğul olur, xüsusilə tarda ifa edir, televiziyada maraqlı verilişlər izləyir və dostları ilə futbol oynayır.

Biz də "Çağdaş Təhsil" jurnalının redaksiya heyəti adından Şaiqə böyük həyat uğurları, parlaq gələcək arzulayır, hər zaman elminin sorağı dünyanın müxtəlif yerlərindən, tarının sədasının isə Qarabağdan gəlməyini diləyirik!









gird olan Nahidin ən böyük arzusu orta məktəbi başa vurduqdan sonra Polis Akademiyasına daxil olub, polis peşəsi üzrə ixtisaslaşaraq gələcəyin vətənimizə, milletimizə layiqli xidmət edən polisi olmaq istəyir. Ailəsi daima Nahidi dəstəkləyir, gələcəkdə hansı peşəni seçməsindən asılı olmayaraq, həmin peşənin sayılıb-seçilən mütəxəssisi olmasını arzu edirlər. Nahid asudə vaxtlarını futbol oynamaqla maraqlı vəziyyətə gətirir və dostları ilə görüşərək xoş vaxt keçirir. Nahidin həyatdakı idealı əmisidir ki, onun mehriban və səmimi xarakterini çox bəyəndiyindən istəyir ki, əmisi kimi olsun.

Nahidin 4 nəfərdən ibarət kiçik ailəsi var. Atası Şükürov Xaliq Sərdar oğlu 1978-ci il yanvarın 2-də Laçın rayonunun Yenikənd kəndində anadan olmuşdur. O, ticarətlə məşğuldur. Ailəsini bu fəaliyyətlə məşğul olaraq dolandırır, övladlarına təhsil verir. Anası Şükürova Xalisə Tohid qızı 1987-ci il iyunun 23-də Laçın rayon Alxaslı kəndində doğulmuşdur, dərzi işləyir. Nahidin Emil adında qardaşı da var. Emil 2006-cı il iyunun 29-da Daşkəsəndə doğulmuşdur. O, hazırda Nahidlə eyni məktəbdə 7-ci sinifdə təhsil alır. Emil də Nahid kimi istedadlı şagirdlərdəndir. O, da dərslərini yaxşı oxumaqla yanaşı, idmanın boks növü ilə məşğul olur.

Biz də öz redaksiya heyətimiz adından Nahidi təbrik edir, ona bol-bol uğur və parlaq gələcək diləyirik. Arzu edirik ki, daim elm yolunda inamla addımlayan vətəndaşlardan olsun, uğurları ilə ailəsinin və sevdiklərinin fəxri olsun.










# "Tarixi və heyvanları sevən məktəbli"

# İsmayılov Hüseyn





**"Daş-qaş əvəzinə özünə bilik yığsan daha çox tanınarsan: ən qiymətli daşı salıb itirə bilərsən, ən sadə biliyi isə səndən heç kəs ala bilməz"**
***(Əbül Fərəc)***

Hər bir insan bir fərddir, lakin hər bir insan şəxsiyyət deyildir. Şəxsiyyət olmaq üçün insanın həyat fəaliyyətində təcrübələri, uğurları, düşüncələri və praktik göstəriciləri olması vacib amildir. Bizim şəxsiyyət dedikdə, çox vaxt ağlımıza müdrik insanlar gəlir. Halbuki, insan özü şəxsiyyət kimi yetişə bilər və bunun üçün də uşaqlıqdan özünə bir yol tutması, özünü dərk etməsi önəm daşıyır. İnsanın həyatı, özünü dərk etməsi üçün də ağlı, biliyi ilə yanaşı, məqsədləri olmalıdır. Məqsədsiz insan həyatı anlaya bilməz, nə də xəyallarında qurduğu arzularına çata bilməz.

"Çağdaş Təhsil " jurnalının 27-ci sayında öz məqsədləri üçün yaşayan, nümunəvi bir şagird kimi yetişən İsmayılov Hüseyn haqqında da məlumat öz əksini tapıb. O, 2007-ci aprelin 25-də Bakıda ziyalı ailəsində doğulub. Hüseyn 2013-cü ilin tədris ilindən etibarən Ağdam rayon 42 saylı tam orta məktəbin birinci sinfinə gedib. O, hazırda həmin məktəbin 6-cı sinif şagirdidir. Hüseynin ailəsi 4 nəfərdən ibarətdir. Atası İsmayılov Vurğun Natiq oğlu 1980-ci ildə Naxçıvanda anadan olub və ali təhsillidir. Hal-hazırda ofis müdiri kimi çalışaraq, halal zəhməti ilə uşaqlarına qayğıkeş ata kimi dəstək olur, ailəsini dolandırır. Anası İsmayılova Yeganə Valeri qızı 1985-ci ildə Bakı şəhərində doğulub. Ali təhsili olsa da, evdar xanımdır və övladlarının təhsilini, nailiyyətlərini daim izləyərək onlara kömək edir. İsmayılova Yeganə təkcə mehriban ana deyil, o eyni zamanda uşaqlarının dostudur. Hüseynin bir qardaşı var ki, o da məktəblidir. İsmayılov Ülvi Vurğun oğlu Ağdam rayonu 42 saylı tam orta məktəbin 3-cü sinif şagirdidir. İdmanla məşğul olan Ülvi uğurları ilə həmişə valideyn və müəllimlərini sevindirib. Hüseyn elmə, təhsilə daha çox önəm verən şagirddir. Onun ən çox sevdiyi dərs tarix və bu dərsi ona tədris edən Elzona müəllimdir. Onun tarixə olan marağı gələcəkdə bu sahə üzrə təhsil və təcrübə qazanmaq istəyindən xəbər verir. Tarix insanın keçmişini, gələcəyini və bu gününü yaşadır. Tarixə olan həvəsindən bilinir ki, Elzona müəllimin əməyi boşa getməyib. Digər ən çox sevdiyi müəllimləri içərisində Nazim müəllim, Gülnurə müəllim də onun fəal şagird olması, savadının artması üçün çalışırlar. Riyaziyyat və coğrafiya fənni də tarixlə bərabər onun çox sevdiyi fənlərdir. Birinci sinifdən indiyə qədər əlaçılığını qoruyub saxlayır. Hüseyn həm təlim-tərbiyəsi, həm də savadı ilə öndə gedən şagirdlərdəndir, o, qiymət üçün deyil, savad, bilik əldə etmək üçün oxuyur. Boş vaxtlarında zehni gücləndirən intellektual oyunlar oynamaq, maraqlı testlər həll etmək, futbol oynamaq, kitab oxumaq onun sevdiyi işlərdəndir. Hüseyni digər yoldaşlarından fərqləndirən bir cəhət də odur ki, heyvanlara qayğı göstərir, onları sevir, qoruyur. O, çox heyvansevər və təbiətə bağlı biridir. Harda yaralı, kimsəsiz heyvanlar, xüsusilə itləri görərkən onlara yardım etməyə və qulluq etməyə çalışır. Bu da onun sevimli, mehriban, qayğıkeş və mərd bir xasiyyətə malik olmasını sübut edir. Hüseynin atası onun gələcəkdə ali təhsilli mühəndis olmağını istəyir.

Biz də redaksiya heyəti adından Hüseyn balamıza həm təhsilində, həm şəxsi həyatında uğurlar arzulayır gələcəkdə seçəcəyi peşənin peşəkarı olmasını diləyirik. Atalar yaxşı deyib ki, alim olmaq asandır, adam olmaq çətin. Bu devizlə həyata atılan Hüseyn gözəl insani keyfiyyətlərinə və humansitliyinə görə sevilməyə və seçilməyə layiq baladır.







fərdən ibarətdir. Atası Həsənov Elçin Şirvan oğlu 1979-cu il avqust ayının 25-də Kürdəmir şəhərində doğulmuşdur, ticarətlə məşğul olur. O, çox mehriban və qayğıkeş insandır. Anası Həsənova Elnarə Fərhad qızı 1980-ci il avqust ayının 3-də anadan olmuşdur. O, Azərbaycan Pedaqoji Universitetində ibtidai sinif müəllimliyi ixtisası üzrə məzun olmuşdur. Hazırda Kürdəmir şəhər F.Həşimov adına 3 saylı tam orta məktəbdə ibtidai sinif müəllimi olaraq fəaliyyət göstərir. O, da öz çalışdığı orta məktəbin qabaqcıl, savadlı , daima şagirdlərinin yaxşılığı üçün, savadlı və təmiz insan kimi yetişməsi üçün çalışan müəllimlərindəndir. Gülşənin özü kimi ağıllı, məsuliyyətli iki qardaşı var. Onlar da Gülşən ilə eyni məktəbdə təhsil alır. Həsənov Şirvan Elçin oğlu 2005-ci il aprel ayının 30-da Kürdəmir şəhərində doğulmuşdur, 8-ci sinifdə təhsil alır. Həsənov Nihad Elçin oğlu 2010-cu il mart ayının 18-də Kürdəmir şəhərində doğulmuşdur. O, 3-cü sinif şagirdidir.







Biz də öz redaksiyamız adından Gülşəni təbrik edir, uğur və nailiyyətlərinin davamını diləyirik. Arzu edirik ki, aldığı təhsil və qazandığı uğurlar daim həyatına işıq saçsın, seçdiyi peşənin savadlı, sayılıb-seçilən mütəxəssislərindən olsun.

# "Gələcəyin vətənpərvər həkimi"

## Həsənova Gülşən







**“Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir”.**

***(HeydərƏliyev)***

Dünyanın hər bir yerində, ictimai inkişafın hər bir mərhələsində cəmiyyətin təhsillə üzvi bağlılığı olmuşdur. Gənc nəsillərin tədrisi, öyrədilməsi, maarifləndirilməsi ən qədim fəaliyyətlərdəndir. Peşəkar müəllimlərin səyləri və ailədəki təlim-tərbiyənin, həmçinin müasir dövrdə kütləvi media vasitələrindən və internetdən irəli gələn imkanların sayəsində gənc nəsil cəmi bir neçə il ərzində oxumağı, yazmağı, hesablamağı, öz ətraf mühitini, əxlaq-davranış normalarını öyrənir. Bəziləri bu bacarıqları digərlərinə nisbətən daha dərindən qavraya bilir və beləliklə təhsil sistemi əslində ictimai çeşidləmə funksiyasını da yerinə yetirərək fərdlərin gələcək iqtisadi taleyinə böyük təsir göstərir. Jurnalımızın növbəti məktəbli qəhrəmanlarından biri də Həsənova Gülşən Elçin qızıdır.

Həsənova Gülşən Elçin qızı 2006-cı il dekabr ayının 7-də Kürdəmir şəhərində anadan olub. Gülşən 2013-cü ildə sentyabr ayının 15-də Kürdəmir şəhər Famil Həşimov adına 3 saylı tam orta məktəbin 1-ci sinifinə qədəm basaraq illərlə gözlədiyi məktəb həyatına qovuşmuşdur. Hazırda Gülşən həmin sözügedən məktəbin 6-cı sinifində təhsilini uğurla davam etdirir. İlk gündən Gülşən müəllimlərinin sevgisini qazanmışdır. Bunu isə o, öz məsuliyyəti, çalışqanlığı və istedadı ilə bacarmışdır. Oxumağa, öyrənməyə həvəsi olan Gülşən daima dərslərinə hazırlıqlı gəlmiş, müəllimin sinifdaxili keçirdiyi fəaliyyətlərdə aktiv şəkildə iştirak etmişdir. Sinifdaxili fəaliyyətlərlə yanaşı Gülşən sinifxarici, məktəb üzrə keçirilmiş layihələrdə, tədbirlərdə iştirak etmişdir. O, məktəbdə keçirilmiş coğrafiya fənni üzrə layihədə iştirak etmiş, məktəb üzrə ikinci yerə çıxdığı üçün məktəb rəhbərliyinin və müəllimlərinin rəğbətini qazanmışdır. Onun ən çox sevdiyi, həvəslə oxuduğu fənn Azərbaycan dili fənnidir. Ən çox rəğbət bəslədiyi müəllim isə sinif rəhbəri olan Səlimova Tünzalə müəllimdir. O, bildirir ki, Tünzalə müəllim çox qayğıkeş, mehriban və zəhmətkeşdir. Bütün şagirdlərinə qarşı həssaslıqla yanaşır, onların öyrənmələri, savadlanmaları üçün əlindən gələni edir. Şagirdlərinin uğur qazanaması üçün ən kiçik fədakarlıqdan belə usanmır, bezmir. Gülşənin gələcəkdəki arzusu həkim olmaqdır. O, orta məktəbi uğurla başa vurub, Azərbaycan Tibb Universitetinə daxil olaraq həkimlik peşəsi üzrə ixtisaslaşmaq istəyir. Çünki uşaqlıqdan onun istəyi insanların fiziki sağlamlığının qayğısına qalan, öz şəfalı əlləri ilə insanları sağaldan savadlı həkim olmaqdır. Seçdiyi peşənin məsuliyyətini az yaşı olmasına baxmayaraq dərk edən Gülşən məqsədinə çatmaq üçün çox oxuyur,boş vaxtlarını da kitab oxumaqla dəyərləndirir. Ağıllı şagird olan Gülşənin həyatdakı idealı Salatın Əsgərovadır. O, öz jurnalist peşəsini həyata keçirmək üçün düşmənlərin işğal etdikləri torpaqlara getməkdən çəkinməyən ölkəmizin gənclərindən olmuşdur. Gülşən də məhz Salatın Əsgərova kimi vətənpərvər gənc olmaq istəyir.

Ağıllı və istedadlı şagird olan Gülşənin ailəsi 5 nə-



# "Gələcəyin ədalətli polisi, qırmızı kəmər ustası"

## İsmayılov Ülvi





**”Görmək və hiss etmək - mövcud olmaq, düşünmək isə yaşamaq deməkdir”**

***(Uliyam Şekspir)***

Hər gələcək nəsil özü ilə gələcək həyata uyğunlaşması üçün ilk növbədə yüksək təhsilə yiyələnməlidir. Tərbiyənin özülü ailədə qoyulduğu kimi, təhsilin də təməli məktəbdə qoyulur. Təməl bilgisi zəif olan insanın sonrakı yaşam meyarında bu çatışmazlıq özünü mütləq göstərir. Elmsiz insan çıraqsız evə bənzədiyi kimi, onu ucaldan da, yolunu işıqlandıran da məhz elm, təhsildir. Hər insan mövcud olduğunu dərk etməli, həyatda hər hansı bir yeri tutmağı öyrənməlidir. Bu onun gələcəyini parlaqlaşdıran ən mühüm keyfiyyətdir. Nə qədər sadə görünsə də, əslində insanın sözdə yox əməldə, həyatda öz yerini tapa bilməsi mürəkkəbdir. Bunun üçün ağıl, yüksək təhsil və müsbət insani keyfiyyətlər gərəkir ki, insan öz layiqli yerini tuta bilsin. Ülvi də cəmiyyətdə özünə mövqe tutmaq üçün daima üzərində çalışan, böyüklərindən nəsihətlər alaraq yetişən məktəblilərdəndir.

İsmayılov Ülvi Vurğun oğlu 2010-cu il yanvarın 23-də Bakı şəhərində ziyalı ailəsində doğulub. Qardaşı kimi məktəb həyatına tələsən Ülvi də 2016-cı ildə Bakı şəhərində yerləşən 42 saylı Ağdam rayon tam orta məktəbin birinci sinfinə gedərək məktəb arzusuna qovuşub. Hazırda həmin məktəbin 3-cü sinif şagirdidir. Atası İsmayılov Vurğun Natiq oğlu 1980-ci ildə Naxçıvanda doğulub və Naxçıvan Dövlət Universitetini bitirməklə ali təhsil alıb. O, hazırda özəl iş sahibkarı kimi çalışaraq ailəsini dolandırır. Anası İsmayılov Yeganə Valeri qızı 1985-ci ildə Bakıda dünyaya gəlib. Orta ixtisas təhsilli əczaçı olsa da, hal-hazırda evdar xanımdır. Mehriban, səmimi qayğıkeş ana kimi Yeganə xanım hər zaman övladlarına dərslərində dəstək olur, təlim-tərbiyəsi ilə məşğul olur. Qardaşı İsmayılov Hüseyn 2007-ci il aprelin 25-də Bakıda anadan olub. O, 6-cı sinif şagirdidir. Onun məqsədi tarixi faktları araşdıraraq, gələcəkdə bu sahədə təcrübəli mütəxəssislərdən biri olmaqdır. Ülvi də qardaşından həm təlim tərbiyəsinə, həm də təhsilinə görə geri qalmır. Bunu onun sinif müəllimləri də təsdiqləyir. Onlar Ülvinin çox fərqli, qeyri-adi bir şagird olduğunu söyləyirlər. O da qardaşı kimi həmişə öndə gedərək əlaçı olub. Baxmayaraq ki, 3-cü sinifdə oxuyur, ancaq fəal və istedadlı şagirddir. Ən çox sevdiyi fənlər riyaziyyat və Azərbaycan dili, ən sevdiyi müəllimi isə Qurbanova Kəmalə müəllimdir. İndiyə qədər Ülvinin idmanda bir sıra uğurları olub. Dərslərindəki qabaqcıllığından əlavə, Ülvi həm də Koreya döyüş sənəti olan Taekvondo idman növü ilə də aktiv məşğul olur. Birinci sinifdən etibarən idmanın bu növü üzrə ”Dinamo” idman cəmiyyətində məşqə gedir. Bu sahədə bir çox nailiyyətlər əldə edən Ülvi medallarla da təltif edilmişdir. Məktəblərarası keçirilən yarışda 2-ci yerə çıxaraq medalla təltif olunub, bu il keçirilən yarışda isə qırmızı kəmərə layiq görülüb. Valideynləri onun bu sahədəki bütün yarışlarında iştirak etməklə Ülviyə dəstək olurlar. Onun ən böyük arzusu özünə bu sahəni sevdirən təlimçiləri kimi döyüşçü olaraq bayrağımızı dünya miqyasında layiqincə təmsil etməkdir.

İnsan yaşadıqca arzuları da yaşayır. Ülvinin başqa sahələrə də marağı var. O, gələcəkdə polis olmaq istəyir. Ülvi düşünür ki, hər zaman ədalət öz yerini tutmalıdır, haqlı, doğru, lakin zəif insanların yanında ədalət, qanun dayanmalıdır ki, həqiqət üzə çıxsın, onlar təklənməsin. Ona görə də arzusu ali təhsilini Polis Akademiyasında almaq və ədalətli polis olmaqdır. Ona bütün arzularında belə həqiqət axtarışında olmağı diləyirik və sənət seçimi nə olursa olsun, əsas odur ki, həmin sənəti hər zaman sevsin və ürəkdən xalqına xidmət etsin.

Biz də Ülviyə ən ülvi istək və arzularımızı bildirməklə parlaq gələcək və xeyirli tale arzulayırıq.

# "Həm əlaçı, həm qeyri-adi istedada malik məktəbli"

# Abbasova Nərminə





**“Elm adamlarının qədrini bilməyən və onların layiq olduğu mükafatı verməyən ölkələr inkişaf edəcəklərini zənn etməsinlər”**

***(Volter)***

Uğuru və nailiyyəti əldə etmək üçün bəzən lazım olduğundan da çox çalışmaq lazımdır. Uğur insanın əməksevərliyinin sonunda verilən qiymətdir. Elmə, savada öz həyatımızda hər zaman geniş yer verməliyik. Bütün elmlərin təməli təhsillə qoyulur. Elm təşkilatlanmış bilikdir. Həmçinin biliyi, savadı olan insanın gözəl əxlaqı da olur. 21-ci əsr də bunu tələb edir ki, zamanın nəbzin tutub onun tələbinə uyğun inkişaf edəsən. Əks təqdirdə geridə qalıb, cahillik girdabında boğulacaqsan. İndiki dövrdə ölkə gəncləri arasında son dövrlər bir çox gənclər peşəkar, yüksək səviyyədə ali təhsil almaq üçün inkişaf etmiş ölkələrin təhsil ocaqlarına üz tutur və istədikləri ixtisas üzrə ən peşəkar səviyyədə ali təhsil alaraq mütəxəssis kimi yetişirlər. Belə bir amalla gələcəyə inamla addımlayan və harda olur olsun təhsilindən iki əlli yapışan istedadlı şagirdlərdən biri də Nərminə Abbasovadır.

Abbasova Nərminə Habil qızı 2005-ci il mayın 29-u Sabirabad rayonunda həm zəhmətkeş, həm də ziyalı olan bir ailədə anadan olub. Məktəb həyatına tələsən Nərminə 2010-cu ilin tədris ilində Sabirabad rayonun H. Z. Tağıyev adına 6 saylı tam orta məktəbin birinci sinfinə gedib hazırda həmin məktəbin 8-ci sinif şagirdidir. Evin ikinci övladı olan Nərminənin ailəsi 4 nəfərdən ibarətdir. Atası Abbasova Habil Dövlət Yaşıllaşdırma idarəsində bağban işləyir. Nərminənin atası çox gözəl bir misiya ilə xalqına xidmət edir. Bu gün təbiəti qorumaq, ona qayğı göstərmək həmişəkindən daha çox lazımdır. Elm, texnika o qədər inkişaf edib ki, yeni-yeni zavodlar, müəssisələr açıldığından və texnika çoxaldığından ətraf aləm, ekologiya çirklənib. Ata-bala bir-birlərinə çox bağlı və istəklidirlər. Anası Abbasova Arifə Sabirabad rayonunda H. Z. Tağıyev adına 6 saylı tam orta məktəbin kitabxanasında çalışır. O, işindən zövq alaraq, kitabın tərbiyəvi əhəmiyyətindən də hər zaman danışır. Şagirdlərə daim mütaliə etməyi məsləhət görür və bu işdə birbaşa vasitəçi olur. Bacısı Abbasova Lalə Habil qızı Mingəçevir Turizm kollecinin 2-ci kurs tələbəsidir. O da zamanında yaxşı oxuyaraq öz istəyinə çatıb. Nərminə uğurun sirrini çox çalışmaqda görür və bunu bacısının timsalında şahidi olub. Onun fikrincə insan istədiyi məqsədinə çatmaq üçün yorulmaq bilmədən əzmlə çalışmalıdır. Təbii ki, burada uğurun və iradənin mühüm rolu vardır. O, boş vaxtlarında mütaliə ilə məşğul olur. Çünki mütaliə etməklə Nərminə dünya ədəbiyyatından məşhur yazarların məşhur əsərlərindəki obrazları həm təhlil edərək biliyini artırır, həm də nitqini püxtələşdirir. Məktəbdə göstərdiyi həm yüksək bilik göstəricilərinə, həm də məktəb nəzdində keçirilən tədbirlərdəki fəallığına görə bir çox tərifnamələr, sertfikatlar, diplomlar almışdır. Nərminə atası kimi təbiətə qayğı göstərməyi sevir. Boş zamanlarının bir qismində də bitkiləri əzizləyir, onlara xüsusi qulluq edir. Nərminə həm də çox istedadlı bir qızdır, onun maraqlı, qeyri adi əl işləri var. Bu qeyri-adi bacarıq odur ki, müxtəlif rəngli daşlarla, muncuqlarla fərqli boyunbağılar, bilərziklər, qeyri-adi sırğalar və bu tipdə digər rəngarəng bəzək aksesuarları hazırlayır. Anası Nərminənin hələ uşaqlıqdan bu cür istedada malik olduğunu deyir. Ən böyük arzusu isə həkim olaraq xəstələrə şəfa verməkdir. Elə buna görə də səhiyyəni daima izləyir, baş vermiş qeyri-adi cərrahiyyə əməliyyatlarına baxır, tibbi yenilik və kəşfləri, elmi -tibbi təcrübə mərkəzlərinin gördüyü işləri oxuyaraq maariflənir. Ən çox sevdiyi fənn Azərbaycan dili, ən sevdiyi müəllimi isə Sevinc müəllimdir. Ailəsi Nərminə ilə qürur duyur. O, çox bacarıqlı, istedadlı və istiqanlı bir qızdır. Nərminəyə öz redaksiyamız adından arzularının çin olmasını və qarşısına qoyduğu məqsədin arxasınca getməyi arzulayırıq.



















çirilmiş şahmat yarışlarında iştirak etmiş, 1-ci yeri tutmuşdur. Boş vaxtlarında da Nihat bu bacarığını püxtələşdirmək üçün dostlarıyla şahmat oynayır, onlara hətta qalib də gəlir. İstedadlı və qabiliyyətli şagird olan Nihatın gələcəkdəki arzusu Azərbaycan Tibb Universitetinə daxil olub, həkimlik peşəsi üzrə ixtisaslaşaraq öz qızıl əlləri ilə insanların sağlamlığının qayğısına qalan savadlı, peşəkar həkim olmaqdır. Ailəsi də onun bu arzusunu dəstəkləyir, Nihatın məqsədinə çatması üçün heç bir dəstəyi əsirgəmirlər. Əksinə bir valideyn kimi ona dəstək olub, gələcəyinin uğurlu olması üçün təhsilinə və istedadına dəyər verirlər.

Nümunəvi şagird olan Nihatın 5 nəfərlik bir ailəsi var. Atası Quliyev Emin Rəhim oğlu 1984-cü ildə Bərdə şəhərində doğulub, ustadır. Anası Quliyeva Şəbnəm Etibar qızı 1991-ci ildə Bərdə şəhərində doğulub, evdar xanımdır. Nihatın ortancıl qardaşının Əlinin 6 yaşı var, məktəbəqədər hazırlığa gedir, kiçik qardaşı Cəsurun isə 1 yaşı var. Nihat balaca qardaşlarını çox sevir, daima onların qayğısına qalır.

Biz də öz “Çağdaş Təhsil” redaksiyamız adından Nihadı təbrik edir, gələcək həyatında uğur və nailiyyətlər diləyirik. Arzu edirik ki, qazandığı uğurları və nailiyyətləri ilə daim valideynlərinin və sevdiklərinin fəxri olsun.









# "Gələcəyin şair ruhlu həkimi"

# Quluzadə Nihat







**"Elmdə irəli gedib mənəviyyatda geridə qalan insan son nəticədə irəli yox, geriyə gedir"**

***(Aristotel)***

Təhsil insan inkişafının kökündə duran ən qabaqcıl yönləndirici islahatlardan biridir ki, onun sayəsində yüksək ixtisaslı kadrlar yetişib ölkəni, dövləti müxtəlif tərəflərdən inkişafına səbəb olur. 21-ci əsrdə iqtisadi və sosial tərəqqi dövlətlərin öz cəmiyyətlərinin bütün üzvlərini sürətlə dəyişən dünyada qabağa getməyə hazırlaşdıracaq təhsil ilə təmin edə bilməsindən asılıdır. İnnovasiya cəmiyyəti öz insanlarını dəyişikliklərə uyğunlaşmağa hazırlamalıdır, əks təqdirdə bu qocaman dünyanın dəyişən elmi-texnoloji yenilikləri ilə üzə-üzə gəlmək o qədər də asan deyil. Həyatın asan olmayan bu yolu ilə addımlayan məktəbli qəhrəmanlarımızdan biri də Quluzadə Nihat Emin oğludur.

Jurnalımızın bu sayında işıqlandırılan Quluzadə Nihat Emin oğlu 2011-ci il avqust ayının 25-də Bərdə rayonunda sadə bir ailədə dünyaya göz açıb. Tez böyüyüb məktəbə getməyə can atan Nihat nəhayat istəyinə çataraq 2017-ci ildə sentyabr ayının 15-də Bərdə şəhər N.Nərimanov adına 3 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur. Hazırda Nihat həmin məktəbin 2 c sinifində təhsilini uğurla davam etdirir. Nihat dərslərinə qarşı olan maraq duyğusu ilə məktəbə başladığı ilk gündən müəllimlərinin sevgisini və hörmətini qazanmışdır. Müəllimlərinin dediyinə görə Nihat az yaşı olmasına baxmayaraq oxumağa, öyrənməyə çox həvəslidir. Bütün dərslərindən əla qiymətlər alan Nihatın ən sevdiyi fənn həyat bilgisidir. O, təbiət hadisələrinə maraqla yanaşır, öyrənməyə can atır, məhz buna görə də Nihatın ən sevdiyi dərs elə həyat bilgisidir. Anasından Nihatın müəllimləri haqqında soruşarkən bizə Nihatın bütün müəllimlərini çox sevdiyini, hamısına hörmətlə yanaşdığını bildirdi. Ancaq Nihatın məktəbə gəldiyi ilk gündən gördüyü, qayğısına qalan sinif rəhbəri Qızbəs müəllimə qarşı xüsusi rəğbət hissi bəslədiyi məlum oldu. Nihatın həmçinin şeir yazmaq kimi xüsusi istedadı da var ki, vətən, ana, müəllim kimi mövzularda onun çoxlu sayda şerləri var. O, müəllimlərinə olan sevgisini zamanla misralara tökmüş, şeirlə ifadə etmişdir.Aşağıda qeyd edilən şer parçasını da Nihat sevimli müəllimi Qızbəs müəllimə və onun timsalında bütün müəllimlərinə həsr etmişdir.

Müəllimdir həyatda ən şərəfli peşə
Elm aləmində əlçatmaz zirvə,
O uca zirvəyə hörmətim böyük,
Öz tələbələrinə verirlər öyüd.
Ey əziz şagirdlər yaxşı oxuyun,
Bu şərəfli peşəyə layiqli olun.

Dərslərində əlaçı olan Nihat məktəbdə keçirilən şahmat dərslərini də çox sevir. O, bir neçə dəfə məktəblərarası ke-









# "Təhsildə uğurlu, həyatda zəhmətsevər"

# AĞAZADƏ MİRQASIM












**"Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikrlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən cəmiyyətə ölkəyə xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur"**

***(H.Əliyev)***

İnsan həyatı çox cəhətli və zəngindir. Ehtiyaclar müxtəlif olduğundan insanın qarşısına qoyduğu məqsədlər də, əldə etdiyi biliklər də, yiyələndiyi vərdişlər də müxtəlif olur. Ona görə də əməli fəaliyyət heç də təkcə maddi istehsalla məhdudlaşmır, o həm zehni fəaliyyəti, həm də fiziki fəaliyyətin şüurlu surətdə həyata keçirilən digər aspektlərini əhatə edir. Hər bir məqsədəuyğun fəaliyyətin mümkünlüyü üçün müəyyən obyektiv vasitələr lazımdır ki, bunların məcmusu da texnikanın məhz həmin fəaliyyətə uyğun olan növlərini təşkil edir.

Elmin ikili təbiəti bir tərəfdən sosial-mədəni, digər tərəfdən də praktik bir hadisə kimi çıxış etməsi əksər hallarda unudulsa da, son vaxtlarda bir sıra tədqiqatlarda bu məsələyə diqqət yetirilmişdir. İqtisadçı alim A.İ.Ançişkin də elmin sosial-mədəni hadisə olmasını nəzərə alır və yalnız bununla yanaşı elmin praktik iqtisadi funksiyasını tədqiq edir. Ançişkin yazır "Elmin məzmunu və onun inkişaf məntiqi ilk növbədə idrakın obyekti ilə müəyyən olunur, texnika isə özündə iki başlanğıcı -elm və praktik başlanğıcları ehtiva edir"

Məqaləmizin növbəti qəhrəmanı Ağazadə Mirqasım Mirbaba oğludur.

Ağazadə Mirqasım Mirbaba oğlu 9 fevral 2006-cı ildə Sabirabad rayonunun Cavad kəndində anadan olub. 2012-ci il Sabirabad rayon Ş. Cəbrayılov adına 2 nömrəli Cavad kənd tam orta məktəbin 1-ci sinfinə daxil olub. Hal-hazırda həmin məktəbin 7-ci sinif şagirdidir. Dərslərinə hər zaman məsuliyyətlə və diqqətlə yanaşan Mirqasım sinfin sayılan, seçilən uşaqlarındandır. Bütün fənlərə diqqətlə yanaşsa da ən sevdiyi fənn riyaziyyatdır. Ən sevimli müəllimi isə Yasəf müəllimdir. Məhz elə riyaziyyata olan marağı Yasəf müəlliminin peşəkar və savadlı müəllim olmasından irəli gəlir. Mirqasımın təhsil sahəsində ən böyük uğuru 2017-ci ildə olub. İştirak etdiyi sınaq imtahanından ən yüksək, yəni 300 bal toplayaraq həmyaşıdları arasında birici yerə çıxmışdır. Mirqasım təhsilində qazandığı müvəffəqiyyətə və nümunəvi davranışına görə məktəb rəhbərliyi tərəfindən "Fəxri Fərman" la təltif edilmişdir. Bu nəticəsinə görə Mirqasımı Şirvan liseyinə dəvət ediblər. İstedadlı və bacarıqlı olduğuna görə hər dəfə məktəbdə keçirilən tədbirlərdə aktiv iştirak edib, ədəbi-bədii yaradıcılıq səhnəciklərində yer alaraq öz məharətini və istedadını nümayiş etdirib. Mirqasım vətənpərvər bir övlad olduğundan vətənini, xalqını hər şeydən əziz tutub onu müqəddəs dəyərləndirir. O, hətta 20 yanvar və 26 fevralda keçirilən tədbirlərdə əsgər rolunu oynamaqla içindəki vətən sevdasını , ona olan xəyanəti, mənfur erməni düşmənlərinin törətdiyi vəhşilikləri işıqlandırıb. Asudə vaxtlarını futbol oynamaqla və dostları ilə gəzməklə keçirir. Futbola böyük marağı olan Mirqasımın azarkeş olduğu komandalar "Real Madrid" və "Qarabağ" komandasıdır. Gələcəklə bağlı planlar quran və gələcəyinə böyük ümidlərlə baxan Mirqasımın arzusu ədalətli polis olmaq və daim xalqının ölkəsinin hüquqlarını qorumaq ,asayişin keşiyində durmaqdır. Mirqasımın ailəsi də onu hər arzusunu dəstəkləyir və çox istəyirlər ki, onun arzuları çin olsun. Mirqasımın ailəsi 5 nəfərdən ibarətdir.

Atası Ağayev Mirbaba Seyidabbas oğlu 1969-cu ildə Sabirabad rayonunda anadan olub. Hazırda Fövqəladə Hallar Nazirinin əməkdaşıdır. Mirqasımın idealı da məhz atasıdır. Onun kimi güclü, əqidəli və zəhmətkeş olmaq istəyir.

Anası Ağayeva Məhluqə Fəxrəddin qızı 1977-ci ildə Sabirabad rayonunda anadan olub. Hazırda evdar xanımdır. Bir ana olaraq övladlarının təhsil, təlim-tərbiyə məsələləri ilə ciddi məşğul olub və onları daim diqqət mərkəzində olub.

Evin tək oğlu olan Mirqasımın 3 bacısı var.

Ağayeva Leyla Mirbaba qızı 1995-ci ildə anadan olub. Texniki peşə məktəbini bitirib.

Ağayeva Sona Mirbaba qızı 2000-ci ildə anadan olub, orta ixtisas təhsillidir.

Ağayeva Sənəm Mirbaba qızı 1997-ci ildə anadan olub. Texniki peşə məktəbini bitirib.

Biz də kollektivimiz adından Mirqasım balamıza uğurlar arzulayırıq. Gələcək həyatı parlaq, ömür yolu aydın olsun!

# "Həkimliyi özünə məslək seçən şagird"

## SƏYYARƏ ABDULLAYEVA






**"İnsanlar sürət və səsdə müxtəlif olduqları kimi elm və əxlaqda da bir-birindən fərqlənirlər"**

***(A. Bakıxanov)***

Elm yarandığı gündən insanların əmək məhsuldarlığının artırılması və bunun sayəsində onun rifahının yaxşılaşdırılmasına xidmət etmişdir. Elmlə məşğul olan şəxslərə alim deyilir.Onlar insanların arasından öz bacarığı , savadı və dünyagörüşü ilə fərqlənir. Alimlərin məqsədi mövcud şəraitində birbaşa və dolayı yolla insanların həyat tərzinin yaxşılaşdırılmasından ibarətdir. Hər bir alimin öz elmi işlərinin nəticəsini kütləvi surətdə hətta başqa sahələrdə çalışan alimə çox ciddi və əyani şəkildə şərh etməsi alimliyin əsas keyfiyyətlərindən biridir. Elm haqqında müqəddəs kitabımız olan Quranda belə bir kəlam vardır."Kim ki evdən elm dalınca çıxır o qayıdana qədər Allah yolundadır. Kim ki, elm dalınca gedir Allah onun cənnət yolunu asanlaşdırır. Mələklər onu qanadları altına alaraq bütün şər, bəlalardan qoruyur. Kim ki ,elmi körpəlikdən öyrənir, onun elm öyrənməyi daş üzərində yazı yazmağa oxşayır kim ki, yaşlı vaxtında öyrənməyə başlayır bu su səthində yazmağa oxşayır".

Elm varlıqların həqiqətən necə olduqlarını düzgün təsəvvür etmək insanın yaradıcı ağlı və sağlam düşüncəsi dairəsində onun xüsusiyyət və keyfiyyətlərini kəşf etməkdir.Elm 3 baxımdan qiymətlidir. Birincisi elmin hər şeydən əvvəl praktiki dəyəri vardır. İkincisi elmin intellektual dəyəri vardır, yəni elm insanlara elmi zehniyyət qazandırır. Üçüncüsü elmin əxlaqi dəyəri vardır, insanların daha ərdəmli və yüksək əxlaqlı olmalarını təmin edir.

Öz yolunu elm istiqamətində seçən qəhrəmanlarımızdan biri də Abdullayeva Səyyarə Elman qızıdır.

Abdullayeva Səyyarə Elman qızı 28 iyul 2010-cu ildə Salyan rayonunun Sarvan kəndində anadan olub. 2016-cü ildə Laçın rayon Həsən Qorçiyev adına Səfiyan kənd tam orta məktəbə daxil olub və hal-hazırda həmin məktəbin 3a sinifində uğurla öz təhsilini davam etdirir. Daim öyrənməyə, elmə marağı olan istedadlı və çalışqan balamızın sevimli fənləri Azərbaycan dili, riyaziyyat və həyat bilgisidir. Onun bir fərd kimi yetişməsində, mükəmməl təhsil almasında Əminə, Vəfa ,Vüsalə adlı müəllimlərinin əvəzsiz rolu var. Səyyarəyə parta arxasında oturmağı, yazı yazmağı öyrədən Əminə müəllim olub. Əminə müəllimin dərin bilik, mədənilik və mənəviyyata malik olduğunu qeyd edən Səyyarə müəllimlik sənətini hər şeydən əvvəl tanrı sənəti adlandırıb. Səyyarənin həyatda idealı Əminə müəllimdir .Gələcək peşəsini də indidən seçən Səyyarənin ən böyük arzusu həkim olmaqdır. Hətta bu sahədə biliklərini artırmaq üçün dərsdən əlavə praktikalara da gedir. Asudə vaxtlarını kitab oxumaqla və ev işlərində anasına kömək etməklə keçirir. Məktəbin fəxri şagirdi yaxşı oxuduğuna və təlim-tərbiyəsinə görə daim məktəb rəhbərliyinin rəğbətini qazanmışdır. Səyyarənin ailəsi 5 nəfərdən ibarətdir.

Atası Abdullayev Elman Abdulla oğlu 5 aprel 1978-ci ildə Salyan rayonunda anadan olub. Hazırda Müdafiə Nazirliyində hərbiçi işləyir.

Anası Abdullayeva Simuzər Zakir qızı 7 iyul 1981-ci ildə Neftçala rayonunda anadan olub. Hazırda evdar qadındır.

Səyyarənin 2 bacısı var. Abdullayeva Nazlı 19 avqust 2009-cu ildə anadan olub. Hazırda 4-cü sinifdə oxuyur.

Abdullayeva Aysel 24 noyabr 2017-ci ildə Bakı şəhərində Xırdalan rayonunda anadan olub.

Heyətimiz adından Səyyarə balamıza gələcək həyatında uğurlar, müvəffəqiyyətlər arzulayırıq. Uğurları ilə daim ailəsinin, müəllimlərinin fəxri olsun.



# "Onun adı cəsur, özü idmançı, məqsədi olmaq cəmiyyətə nur"

## ASLANLI CƏSUR




**"Quran-şərifin bizə verdiyi tövsiyyələr , dərs göstərdiyi yolları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsurluğa dəvət edən tələblərdir"**

Quranda təhsil anlayışı çox əhatəlidir. Ən əsas təhsil sahələrindən biri də imanlı insanın şəxsiyyətini rəftar və davranışlarını danışıq üslubunu və müraciət formasını və bütün xüsusiyyətlərini Quranda bildirilən üstün əxlaqa yaraşan formaya salması və bu məqsədə çatışmayan cəhətlərini tamamlaması, xətalı cəhətlərini düzəltməsidir.

Dövrümüzdə ölkələrin inkişafı ilə əlaqədar olaraq çox vaxt təhsilin əhəmiyyətini vurğulayan tədbirlərlə, müzakirə proqramlarına və məqalələrə tez-tez rast gəlirik. Təhsilin yayılması üçün bir çox kampaniyanın adını eşidirik. Bütün bunlar həqiqətən təqdirəlayiq fəaliyyətlərdir.Çünki cəmiyyəti ancaq yaxşı təhsil almış, yüksək keyfiyyətli mədəni insanlar irəli apara bilər. Gələcəkdə özünə cəmiyyətdə yer tutmaq üçün təhsil biliklərini artıran çoxlu sayda qəhrəmanlarımız vardır. Belə qəhrəmanlardan biri də Cəsur Aslanlıdır.

Aslanlı Cəsur Vüsal oğlu yanvarın 30-u 2010-cu ildə Bərdə rayonunun Mehdili kəndində anadan olub. 2016-cı ildə Bərdə rayonunun Mehdili kənd tam orta məktəbinə daxil olub. Hal-hazırda həmin məktəbdə 3-cü sinifdə oxuyaraq öz təhsilini uğurla davam etdirir. Cəsur məktəbə ilk qədəm qoyandan bu günə qədər həmyaşıdları arasından fərqlənməyi bacarmış, daim müəllimlərinin diqqət mərkəzində olmuşdur. Bütün fənlərə maraq göstərsə də ən sevimli fənni Azərbaycan dilidir.Doğma ana dilimizi sevən onun zənginliyindən və qədimliyindən söhbət açan Cəsur bildirib ki ,mənim dilim poeziya dili, ahəngdar dildir. Mənim ana dilim müqəddəs dildir, ömrümüzü mənalandıran ,xəyallarımızı qanadlandıran, varlığımız, vüqarımız, fəxr dünyamızdır. Cəsurun bu günə gəlib çatmasında böyük rolu olan sinif müəllimi Ulduzə müəlliminin onun qəlbində xüsusi yeri var. Dərslərindən yüksək qiymət alan Cəsur hətta asudə vaxtlarında belə summativ qiymətləndirməyə aid testlər işlədiyini bildirib. Gələcədə idmançı olmağı istəyən Cəsur ölkəmizi xarici ölkələrdə təmsil etmək arzusu ilə çalışır. O, bildirib ki, əgər seçdiyin peşəyə qarşı sevgi və istək olarsa, insan uğur əldə etmək üçün qarşısına məqsəd qoyarsa bütün çətinlikləri aşmaq asandır. Peşəkar idmançı olmaq istəyən insanda iradə və dözümlülük çox vacibdir.Əsl idmançı olmaq istəyən şəxs ilk növbədə nizam-intizam qaydalarına ciddi şəkildə riayət etməli, sağlamlığına riaət etməlidir. Cəsurun ailəsi 4 nəfərdən ibarətdir.

Atası Eyvazov Vüsal Yunis oğlu 26 dekabr 1986-cı ildə Bərdə rayonunda anadan olub. Orta təhsillidir. Hal-hazırda fərdi təsərrüfatla məşğul olur.

Anası Eyvazova Şəlalə Müslim qızı 17 mart 1989-cu ildə Bərdə rayonunda anadan olub. Hal-hazırda evdar qadındır.

Cəsurun 2 qardaşı var. Aslanlı Sərxan 11 mart 2011-ci ildə Bərdə rayonunda anadan olub. Hal-hazırda 2-ci sinifdə oxuyur.

Aslanlı Kənan 26 aprel 2015-ci ildə Bərdə rayonunda anadan olub. 4 yaşı var.

Kollektivimiz adından Cəsur balamıza gələcək həyatında uğurlar arzulayırıq. Adı kimi özü də cəsur, mərd oğlanlardan olsun. Güclü idmançı olub ölkəmizin adını beynalxalq arenada tanıtmaq və üçrəngli bayrağımızı yüksək səviyyədə təmsil eləmək istəyi çin olsun!



# "Musiqiyə həvəsli,dərslərində məsuliyyətli"

# Qasımlı Zeynalabdin







**"Elm neçə əsrlər ərzində hamılıqla tikilən möhtəşəm bir məbəddir ki, onun hər bir daşını qoymaq bir çox alimlərə bütün ömrü müqabilində müyəssər olmuşdur"**

***(Puankare)***

Bütün sahələrdə olduğu kimi, təhsilimizdə də özünün yüksək peşəkarlıq nümunəsi ilə fərqlənən müəllimlərimizin olması ən vacib məsələlərdən biri olmalıdır.Çünki müəllim bir günəştək bütöv bir cəmiyyətin maarifləndirilməsində, təhsillənməsində mühüm rol oynayır, müəllimlərin ötürdüyü bilik, elm sayəsində şagirdlər, gənclər özündəki istedad və bacarığı aşkarlayıb üzə çıxarmaq imkanı var. Daha doğrusu, savadlı və yaxud savadsız şagird, bütöv cəmiyyət müəllimin zəhni əməyinin bəhrəsi kimi xarakterizə olunur.

Müasir dövrdə dünyanın sürətlə inkişaf etdiyi bir dönəmdə yaşadığımız üçün elmin, təhsilin hansı yenilik və innovativ kəşflərə nail olduğunun şahidi oluruq və edilən elmi-texniki kəşflərin tez bir zamanda dünyanın müxtəlif ölkələrinə siraət etməsi də artıq onun gücünü danılmaz edir. Bu gün məişətdə istifadə etdiyimiz ən kiçik elektrik cihazından tutmuş, hər bir işimizdə əlimizdən tutan, dünyanı bizim üçün kiçikləşdirən internet kimi qlobal kəşflər məhz elmin, yüksək təhsilin, işləyən beyinlərin nəticəsidir.

Şərqlə qərbin mərkəzində yerləşən tranzit bir ölkə kimi Azərbaycanda da son illər bir çox sahələrdə dəyişikliklə getməkdədir və bu dəyişikliklərin müsbət və elmli istiqamətdə geniş vüsət alması yenə də istedadlı və savadlı gənclikdən, məsuliyyətli və peşəkar pedaqoq kadrlardan asılıdır. Bunu dərk edib indidən kitab-dəftərə sarılan şagirdlərimizdən, savadı ilə yanaşı musiqi bilgilərini artıran istedadlı məktəblilərimizdən biri də Qasımlı Zeynalabdindir. Bu kiçik yazıda onun tərcümeyi halı öz əksini tapıb.

Qasımlı Zeynalabdin Amil oğlu 2008-ci il avqustun 5-i Sabirabad rayonunda musiqiçi ailəsində dünyaya göz açıb. Bu ağıllı bala gələcəyin mərd,qoçaq gənclərindən biri olacaq fikrini əminliklə deyə bilərik. Çünki ağıllı və hazırcavab olan bu bala dərslərində əlaçı və istedadlıdır. Hər bir şagird kimi Zeynalabdin də tez böyüyüb məktəbə getməyə tələsib və məktəb yaşına çatanda da böyük həvəslə məktəbə yollanıb. O,2014-cü ildə Hacı Zeynalabdin Tağıyev adına 6 saylı tam orta məktəbin birinci sinfinə gedib. Zeynalabdin indi bu məktəbin 5d sinif şagirdlərindən biridir. Dərslərini yaxşı oxuyan Zeynalabdin, bütün müəllimləri tərəfindən sevilir. Və hər zaman çalışır ki, dərslərini yaxşı oxuyub ona olan etimad və sayğını doğrultsun. Onun musiqiyə, incəsənətə böyük həvəsi var. Məhz bu səbəbdən də, o musiqi dərsini dinləməkdən böyük zövq alır, hər zaman çalışır ki, musiqi bilgisini artırıb, bu sahəyə dərindən bələd olsun. Ən sevimli müəllimləri Roza,Tamilla və Rəqibə adlı müəllimləridir. Ən sevdiyi fənn isə təbii ki, musiqidir. Amma o, çalışdığı qədər digər fənn və dərsləri də oxumağı unutmur və yaxşı dərk edir ki, təshil hər tərəfli olmalıdır. Onun musiqiyə olan sevgisi onda gələcəkdə musiqiçi olmaq arzusunu yaradıb. Atası da musiqiçi olduğundan Zeynalabdin də gələcəkdə fotepiano ifaçısı olmaq istəyir və demək olar ki, bu musiqi alətində ifa etməyi, ona dair musiqi təhsilini atasından alır.İndidən musiqi bilgilərini damla-damla artıran Zeynalabdin bir gün peşakar musiqiçi olacağına inanır və dahilərin simasında bunları oxuyaraq özünə uğurlu bir gələcək planı hazırlayır.

Zeynalabdin asudə vaxtlarını kitab oxumaqla və musiqi ilə məşğul olmaqla keçirir. Həmçinin o, məktəb nəzdində təşkil olunan tədbir və çıxışlarda iştirak edərək öz fəallığından qalmır.

Zeynalabdinin ailəsi 4 nəfərdən ibarətdir. Atası Amil Qasımlı 1988-ci il 10 oktyabr tarixində anadan olub,musiqiçidir. Öz övladına musiqinin incəliklərini öyrədir,onu gələcək həyata hazırlayır. Anası Qasımova Seyidkamilə 1991-ci il oktyabrın 16-da anadan olub, evdar xanımdır. Onlar daim Zeynalabdinə dəstək durduqlarını deyir və bir valideyn kimi ona parlaq gələcək, uğurlu tale arzulayırlar. Zeynalabdinin bir bacısı var.Qasımova Zəhra 2018-ci il mayın 4-ü anadan olub. Qardaşı deyir ki, bacısı böyüyəndə ona musiqi dərsini özü deyib, onun savad və biliklənməsində öz xidmətlərini əsirgəməyəcək.

Jurnalımızın kollektivi adından bu istedadlı şagirdə musiqi və elm sahəsində istədiyi zirvəyə çatmasını və daim uğurları ilə valideyn və müəllimlərinin fəxri olmasını arzu edirik.



# "Kitaba bağlı, özü də çox ağıllı"

# ABDULLAYEVA NAZLI








**"Cəmiyyətmizin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaq"**

Bu gün qloballaşan dünya iqtisadiyyatında elmi nailiyyətlərin istehsalata tətbiqi geniş miqyas almışdır. Daha doğrusunu desək müasir iqtisadiyyatı elmi-texniki nailiyyətlərin tətbiqindən kənarda təsəvvür etmək belə mümkün deyil. Dünya təcrübəsi göstərir ki, elmi-texniki tərəqqinin intensivləşdiyi, sosial-iqtisadi proseslərin mürəkkəbləşdiyi dünya bazarında rəqabətin kəskinləşdiyi hazırkı dövrdə davamlı inkişafın yolu elmi cəhətdən yüksək səviyyədə əsaslandırılmış siyasətdən və elmi texniki nailiyyətlərin iqtisadiyyata tətbiqindən keçir.

Məlumdur ki, elmi-texniki tərəqqi məhsuldar qüvvəyə, mühüm sosial - iqtisadi inkişaf amilinə çevrilmişdir. Məhz bu dövrdə də elmlə iqtisadiyyatın üzvi şəkildə birləşməsi obyektiv zərurətdən irəli gəlir.



Jurnalımızın növbəti qəhrəmanı Abdullayeva Nazlı Elman qızıdır. Abdullayeva Nazlı Elman qızı 19 avqust 2009-cu ildə Salyan rayonunun Sarvan kəndində anadan olub. 2015-ci il Laçın rayon Həsən Qorçiyev adına Səfiyan kənd tam orta məktəbinə daxil olaraq təhsil həyatına başlamışdır. Hal-hazırda həmin məktəbin 4-cü sinif şagirdidir. Hələ 1-ci sinifdən etibarən dərsləri ilə müstəqil məşğul olan savadlı və bacarıqlı qızımız daim yüksək qiymətlər almağa nail olub. Nazlının sevimli fənləri Azərbaycan dili, riyaziyyat və ingilis dilidir. Sevimli müəllimi isə Gülnarə müəllimdir. Adətən müəllimlər ən yaxşı oxuyan məsuliyyətli və fəal şagirdlərini sevirlər. Nazlı da belə şagirdlərdəndir. O daim təlim-tərbiyəsi və dərsə olan münasibəti ilə müəllimlərinin diqqətini cəlb etmişdi. Nazlı yaxşı oxuduğuna və təlim -tərbiyəsində fərqlamdiyinə görə məktəb rəhbərliyi tərəfindən "Təşəkkürnamə" ilə təltif edilmişdir. Asudə vaxtlarını kitab oxumaq və mütaliə etməklə keçirir. Çünki mütaliə onun elm dünyasını və nitq qabiliyyətini zənginləşdirir .Fiziki yorğunluğunu və gərginliyini aradan qaldırmaq üçün bəzən idmanın növü olan voleybol oynamaqla istirahət edir. Nazlının həyatda idealı onun ailəsidir. Artıq gələcək peşəsini də indidən seçən Nazlının ən böyük arzusu həkim olmaqdır. Sağlamlığı ilə bağlı əziyyət çəkənlərə kömək etməyi , onların səhhətinin qorunması öçün əlindən gələni edəcəyini bildirib. Nazlının ailəsi 3 nəfərdən ibarətdir.

Atası Abdullayev Elman Abdulla oğlu 5 aprel 1978-ci ildə Salyan rayonunun Sarvan kəndində anadan olub. Hazırda Azərbaycan Respublikasının Müdafiə Nazirliyində hərbiçi işləyir.

Anası Abdullayeva Simuzər Zakir qızı 7 iyul 1981-ci ildə Neftçala rayonunda anadan olub. Hazırda evdar xanımdır.

Nazlının 2 bacısı var. Abdullayeva Səyyarə Elman qızı 28 iyul 2010-cu ildə Salyan rayonunda anadan olub.

Abdullayeva Aysel 24 noyabr 2017-ci ildə Bakı şəhərində Xırdalan rayonunda anadan olub.

Kollektivimiz adından Nazlı balamıza gələcək həyatında uğurlar arzulayırıq. Ümid edirik ki, arzuladığı peşəyə sahib olacaq və xalqının sağlamlığının keşiyində duracaq.

# "Sevdiyi oyun şahmat, uğurları ilə edir hamını mat"

## İsrafilov Dadaş







**“İnsana arxadır onun kamalı,**
**Ağıldır hər kəsin dövləti, malı”.**

***(Nizami Gəncəvi)***

Öyrənmək gözəlliyin sorağında gəzmək kimidir. Bu gözəlliyi kəşf edə bilmək üçünsə daşlı-kəsəkli yollarda addımlamalı, çox çətinliyə sinə gərməlisən. Lakin bunu bezmədən,yorulmadan etməlisən. Elm sirli bir aləmdir. Elm adamının yolu işığa, aydınlığa gedən yoldur. Hər bir millətin, dövlətin tərəqqisi və fəaliyyətinin başlıca inkişafı elm və əxlaqdan aslıdır. Elmin qədər əxlaqın olmalı və ya əxlaqın olduğu qədər elmin olmalıdır. Çünki insan təkcə elmin deyil, həm də mənəvi məsələlərə diqqət yetirməli və insanlığın dəyərini uca tutmalıdır. Bütün bu dəyərli fikirlər məktəblilər və gənclər üçün örnək olmalıdır.

Jurnalımızın bu sayında haqqında danışacağımız şagird də öz çalışqanlığı və istedadı ilə təhsil aldığı məktəbdə öz yaşıdlarından seçilməyi bacaran İsrafilov Dadaş Azad oğludur. İsrafilov Dadaş Azad oğlu 2004-cü il fevral ayının 20-də Kürdəmir rayonunun Xırdapay kəndində doğulub. Dünyaya gəldiyi ilk gündən ailəsinə sevinc bəxş edən Dadaş 2010-cu il sentyabr ayının 15-də Kürdəmir şəhər Tofiq İsmayılov adına 1 saylı tam orta məktəbin 1-ci sinifində təhsil almağa başlamışdır. Hazırda Dadaş həmin məktəbin 9-cu sinifində təhsilini müvəffəqiyyətlə davam etdirir. Dadaş məktəbə getdiyi ilk gündən öz məsuliyyəti və oxuma həvəsi ilə müəllim və yoldaşlarının diqqətini çəkməyi bacarmışdır. O, müəllimlərinin ən sevimli, ən











# "Həm ağıllı, həm istedadlı"

## MİRZƏ ZEYNALLI





**”Ağıl köhnəlməyən geyimdir, bilik tükənməyən mədən”**

***(Qırğız atalar sözü)***

Elmin mənbəyi evimizdən, bağçadan, məktəbdən başlayır. Elm öyrənmək böyük zəhmət, qabiliyyət və zaman tələb edir. Amma bu zamanı bizə qısa edən və bizim savadlanmağımızda müstəsna xidmət və əməyə malik şəxslər isə məhz müəllimlərdir. Məhz müəllimin sayəsində savadlı, düşünən bir cəmiyyət formalaşır. Ona görə də müəllimə qayğı, elə cəmiyyətə qayğı deməkdir. Torpaqlarımızın işğaldan azad edilməsi, millətimizin azad və firəvan yaşaması üçün bütün bilik və bacarıqlara yiyələnən diplomat, savadlı və düşünən gənclərimizə böyük ehtiyac vardır ki, çünki elmi biliklərə malik olan bir ölkənin gücü, qüdrəti böyük olar. Elə haqqında yazdığımız Mirzə də dərslərini yaxşı oxumaqla gələcəkdə seçəcəyi peşəsi ilə vətəninin keşiyini çəkməyi və ona layiqli vətəndaş olmağı özünə borc bilir.



Zeynallı Mirzə Elnur oğlu 21 iyun 2006-cı ildə Kamçatka vilayətinin Petropavlovsk şəhərində anadan olub. 2012-ci il tədris ilində Sabirabad rayonundakı N.Nərimanov adına təbiət və texniki təmayüllü fənlər üzrə 2 nömrəli məktəb-liseyinə ilk addımlarını atan Mirzə elə 1-ci sinfin yarısına qədər orda oxuyur. Valideynləri ilə birlikdə Rusiyaya köçdüyündən təhsilini orda davam etdirsə də, 2-ci sinfin birinci yarımilliyindən etibarən yenidən Sabirabad rayonunda təhsilinə davam edib. Hazırda Mirzə 7-ci sinifdə oxuyur. Mirzə də sorağında olduğumuz çalışqan şagirdlərdəndir. O, çox məsuliyyətli və diqqətcil bir şagirddir. Hələ ibtidai sinifdə ona dərs deyən Simnarə və Svetlana Nikolayevna adlı müəllimləri, sinif şagirdləri Mirzənin necə fəal şagird olmasının və dərslərinə qarşı diqqətcil olmasının şahidi olublar. Elə buna görə də Mirzə hər iki müəllim tərəfindən hörmət qazana bilib. O, hər zaman ilk müəllimlərini xoş xatirələrlə xatırlayır, onların əziyyət və zəhmətini unutmur. Xatırladaq ki, Mirzə rus bölməsində təhsil alır. Hazırda onun sinif rəhbəri ədəbiyyat və rus dili fənnini tədris edən Yaqut müəllimdir. Mirzə ən çox ingilis dilinə maraq göstərir və bu dilin dünya arenasında beynəlxalq səviyyədə tanınmasına görə gələcək həyatı və fəaliyyəti üçün indidən ingilis dili üzrə məşğələlərə gedir.Mirzədə aktyorluq qabiliyyəti olduğu üçün məktəbdə keçirilən tədbirlərdə müxtəlif səhnəcikləri ingilis dilində ifa edərək müxtəlif obrazları canlandırır və bu da onun istedad və savadından irəli gəlir. Mirzə ən çox futbol oynamağı, rəsm çəkməyi bacarır. Futbola olan marağı daha çox üstünlük təşkil etdiyi üçün gününün çox hissəsini futbola ayırır. Düzdür, o, heç bir yerdə ciddi məşqlərə qatılmasa da, yaxşı futbol oynayandır. Ən çox pərəstiş etdiyi komanda “Barselona”, oyunçu isə Messidir. Bəlkə də bu maraq gələcəkdə Mirzəni ən yaxşı futbolçu edəcək. Mirzənin başqa bir istedadı da vardır ki, bu da hələ bağça yaşlarından gözəl rəsm çəkə bilmək istedadına malik olmalıdır. Mirzə futbol kimi, rəsm çəkməyi də özü müəllim köməyi olmadan öyrənib.O, çox maraqlı rəsmlər çəkir, daxili dünyasını fırçasının köməkliyi ilə tablolara köçürür.

Mirzə evin böyük övladıdır. Atası Elnur bəy Rusiyada sürücü etməklə ailəsini dolandırır. Anası Aybəniz xanım “Avon” şirkətinin ölkə təmsilçisidir, yəni kiçik bizneslə məşğuldur.Nənəsi Yasəmən xanım evdar xanım, qardaşı Orxan isə məktəblidir. O, 3-cü sinif şagirdidir və qardaşı kimi savadlıdır. Çalışır ki, dərslərini yaxşı oxuyub o da gələcəyini uğurlu qursun. Bütün ailə üzvləri Mirzəni çox sevir və onun parlaq gələcəyi naminə çalışır. Gələcəkdə ona uğurlar diləyirlər.

Biz də “Çağdaş Təhsil” jurnalının kollektivi adından Mirzəyə təhsildə və şəxsi həyatında müvəffəqiyyətlər diləyir və parlaq bir gələcək arzu edirik!

# "O bir futbolçu, istedadı ilə vurur qolu"

# ORXAN ZEYNALLI








**”Elm sərvətdən daha qiymətlidir. Çünki sərvəti sən qoruyursan, halbuki, elm səni qoruyur”...**
***H.Əli(r.a)***

İnsan əslində, elmsizdir, ancaq Allahın lütfü sayəsində elm əldə edir. İnsana hər mərhələdə elm verilmiş və onun üzünə elmin qapıları taybatay açılmışdır. Elm, əslində, Allahın istədiyi zaman hiss etdirmədən insana lütf etdiyi bir fitri istedad, şüursal üstünlükdür. Bu səbəbdən də hər bir elm sahibi verilən elmin əsl mənbəyini bilməli, Allahı uca tutub ona yönəlməli, biliyindən Allaha xoş olan şəkildə və yerlərdə istifadə etməlidir. Təsadüfi deyil ki, bu günümüzdə elmi-texnoloji yeniliklər elmin inkişafını qaçılmaz edir. Bunu dərk edən və oxumağı özünə həyat prinsipi olaraq seçən aktiv şagirdlərimizdən biri də Orxan Zeynallıdır.

Zeynallı Orxan Elnur oğlu 30 oktyabr 2009-cu ildə Rusiyanın Kamçatka yarmadasının Petrapovlovski şəhərində dünyaya göz açıb. O, 4 yaşı olanda ailəsi ilə vətənə qayıdıblar. Beləliklə, 2015-ci ildə Sabirabad rayonundakı Nəriman Nərimanov adına təbiət və texniki fənlər üzrə 2 saylı məktəb-liseynin 1-ci sinfinə qədəm qoyub. Orxan indi 3-cü sinif şagirdidir. Onun ibtidai sinif müəllimi Gülnar xanımdır. Orxan müəlliminə böyük sevgi bəsləyir. Dərslərinə olan ciddi münasibətinə və təlim-tərbiyyəsində nümunəvi olduğuna görə müəllimi də Orxanı sevir, ona qayğı və diqqət göstərir. Orxan daha çox riyaziyyat fənninə də böyük maraq göstərir. Gələcəkdə də müəllim olmaq istəyir. Buna görə də o dərslərinə çox vaxt ayırır. Çalışır ki, gələcəkdə seçəcəyi peşənin peşəkarı olsun. Hələ o, 1-ci sinifdə oxuyanda dərslərində göstərdiyi yüksək nəticələrə və tərbiyəsinə əsasən məktəbin rəhbərliyi tərəfindən "Tərifnamə" ilə təltif olunub.




Orxan da qardaşı Mirzə kimi gözəl rəsmlər çəkməyi bacarır. O, bunu qardaşından öyrənib. Bir az boş vaxt tapan kimi rəsm çəkir. Dostları ilə futbol oynayır. Ən çox zamanını dərslərinə ayırır. Təkrar etməklə elmini, biliyini artırır.

Ailədə 5 nəfərdən ibarətdirlər. Atası Zeynalov Elnur Rusiyada yaşayır, orada fəaliyyət göstərir. Orxan nənəsi Yasəmən xanım, anası Aybəniz xanım və özündən böyük qardaşı Mirzə ilə birlikdə Sabirabad rayonunda yaşayır. Onlar tez-tez atasının yanına gedirlər. Orxan valideynlərini və Yasəmən nənəsini çox sevir. Yasəmən nənə onların qayğısına qalır, onların hər bir sevincinə şərik olur. Orxan da valideynlərinin və nənəsinin etimadını doğrultmaq, gələcəkdə onu sevən hər kəsin ona olan ümidlərini həyata keçirmək istəyir.

Biz jurnalımızın kollektivi adından Orxana bol nailiyyətlər və gələcək həyatında uğurlar diləyirik.Əgər zamanında yaxşı oxuyub yüksək təhsil alarsa Orxan heç vaxt bir ömür uduzmaz, əksinə elmin nuru hesabına həyatını və cəmiyyətini nurlandırar.


























məsuliyyətli şagirdlərindən biridir. Bütün dərslərini əla qiymətlərlə oxuyan Dadaş Azərbaycan dili və riyaziyyat fənlərini çox sevdiyini, həvəslə oxuduğunu bildirir. Dadaşdan ən sevdiyi müəllimlərini soruşarkən bizə Şəhla İsmayılova və Rəna Babayevanın adlarını çəkdi ki, onların tapşırıqlarını sevərək yerinə yetirdiyini və onlara qarşı xüsusi sevgi və sayğı hiss etdiyini bildirdi. Boş qalmağı sevməyən Dadaş daim öz üzərində çalışır, müxtəlif təlimlərdə iştirak etməyi xoşlayır. O, bu məqsədlə “İntensiv Kodlaşdırma ” adlı seminarda iştirak edərək ”Sertifikat” almışdır. 9 illik əziyyətinin bəhrəsi olaraq Dadaş 2017-ci ildə Kürdəmir rayonunda kimya fənni üzrə keçirilmiş olimpiadada iştirak etmiş rayon üzrə 3-cü yerə çıxdığı üçün ”Tərifnamə” qazanmışdır. Dadaş idmanın şahmat və güləş növü ilə məşğul olur. Onun şahmat sahəsində xüsusi istedadı var. O, Şahmat üzrə rayon turnirində ikinci yeri tutduğu üçün ”Diplom” və medalla təltif olunmuşdur. Uğurları bununla bitməyən Dadaş Kürdəmir şəhərində “Torpaqlarımızın azadlığı uğrunda iştirak edən Zahid Əhmədovun xatirəsinə həsr olunmuş turnirdə” güləş üzrə keçirilmiş yarışda iştirak etmiş 3-cü dərəcəli yer tutduğu üçün ”Diplom” la təltif olunmuşdur. Boş vaxtlarını Dadaş istedadını inkişaf etdirmək üçün şahmat oynamaqla, kitab mütaliə etməklə dəyərləndirir. Elmin, texnologiyanın qlobal dünyamıza hakim kəsildiyi dövrdə Dadaşın ən böyük arzusu orta məktəbi uğurla başa vurub, ali məktəbə daxil olaraq kompyuter mühəndisliyi peşəsi üzrə ixtisaslaşaraq gələcəyin məhşur kompyuter mühəndisi olmaqdır.

Müəllimlərinin sevimlisi olan Dadaşın ailəsi 6 nəfərdən ibarətdir. Atası İsrafilov Azad Dadaş oğlu 1980-ci il sentyabr ayının 14-də doğulmuşdur, ehtiyatda olan hərbiçidir, hazırda ticarətlə məşğuldur. Anası İsrafilova Sevinc Fərhad qızı 1981-ci ildə may ayının 25-də doğulub, evdar xanımdır. Qardaşı İsrafilov Murad Azad oğlu 2009-cu il aprel ayının 1-də doğulub , o, Dadaşla eyni məktəbdə 4-cü sinifdə təhsil alır. Bacılarından İsrafilova Ofeliya 2006-cı il fevral ayının 28-də doğulub, 7-ci sinifdə təhsil alır, İsrafilli Mədinə 2017-ci il mayın 28-də doğulub. Onun 2 yaşı var.




Biz də öz “Çağdaş Təhsil” jurnalımızın redaksiyası adından Dadaşı təbrik edir, uğur və nailiyyətlərinin davamını diləyirik. Həyatda tutduğu yolda müvəffəqiyyətlər, bol-bol nailiyyətlər arzu edirik. Yolun daima açıq, uğurların bol olsun!

# "Həm məsuliyyətli, həm istedadlı"

## Sabitzadə Aksana







**"Kitablar- zaman dalğalarında üzən düşüncə gəmiləridir, hansı ki, dəyərləri nəsildən nəslə ötürür"**

***(Frensis Bekon)***

Kitab oxumaq xoşbəxtliyin yolunu açır. Xoşbəxtlik, daxili dincliyin təmin edilməsi halıdır. İstədiyiniz hər şeyə sahib olsanız belə, iç dünyanızda doldurulmayacaq boşluqlar varsa, bütün dünya önünüzə sərilsə, yenə xoşbəxt ola bilməzsiniz. Xoşbəxtliyin tərifi olan daxili dincliyi, mənəvi rahatlığı tapmağın yollarından biri də oxumaqdır. Bütün çətinliklər, kədərlər, dərdlər, problemlər bilgisizlikdən qaynaqlanmırmı? İnsan, öz içindəki və kainatdakı bilinməyənləri, oxumanın verdiyi fərqindəlik ilə kəşf edər.

Jurnalımızın bu sayında haqqında danışacağımız növbəti istedadlı şagirdlərdən biri də Sabitzadə Aksanadır. Sabitzadə Aksana Nofəl qızı 2007-ci il may ayının 21-də Bərdə rayonunun Yenidaşkənd kəndində dünyaya göz açmışdır. Gəlişi ilə ailəsinə sevinc bəxş edən Aksana böyüyərək 2014-cü il sentyabr ayının 15-də Bərdə rayon Yasif Kərimov adına Yenidaşkənd kənd tam orta məktəbin 1-ci sinifində təhsil almağa başlamışdır. Hazırda isə Aksana balamız həmin məktəbin 6-cı sinifində təhsilini uğurla davam etdirir. Aksana balamız məktəbə getdiyi ilk gündən öz məsuliyyətliliyi və diqqətliliyi ilə müəllimlərinin və dostlarının sevgisini və hörmətini qazanmışdır. Kiçik yaşlarından oxumağa, öyrənməyə meyilli olan Aksana bütün dərslərindən əla qiymətlər alır. Müəllimlərinin hər birinə hörmət və sevgi hissi ilə yanaşan Aksanadan ən sevdiyi dərsləri soruşarkən coğrafiya, biologiya və Azərbaycan dilinə xüsusi həvəsi olduğunu, onları sevərək öyrəndiyini vurğulayır. O, qeyd edir ki, müəllimlərinin hər biri istedadlı və savadlıdır. Müəllimlərin şagirdlərin həyatında böyük rol oynadığını dərk edən Aksana gələcəkdə orta məktəbi uğurla başa vurub, ali məktəbə daxil olaraq bu peşə üzrə ixtisaslaşaraq şərəfli peşə olan müəllimlik peşəsinə yiyələnib savadlı və vicdanlı müəllim olmaq istəyir. O, arzulayır ki, gələcəkdə müəllim olub bir günəştək şagirdlərinin həyatına parlaq işıq saçsın, onların ömrünü öz bilgisi ilə nurlandırsın. Seçdiyi peşənin məsuliyyətini dərk edən Aksana boş vaxtlarını da kitab oxumaqla dəyərləndirir. O, həmçinin asudə vaxtlarını rəsm çəkməklə maraqlı vəziyyətə gətirir. Ailəsinin də ən böyük arzusu övladlarının gələcəkdə seçdiyi peşəyə yiyələnib, layiqli müəllim olmasıdır.

Ailəsinin və müəllimlərinin sevimlisi olan Aksananın ailəsi 6 nəfərdən ibarətdir. Atası Həsənli Nofəl Sabit oğlu 1974-cü il may ayının 30-da doğulmuşdur. O, Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına iştirak edərək,öz sağlam fiziki durumunu itirmişdir, hazırda 2-ci qrup Qarabağ əlilidir. Usta işləyərək halal yolla qazandığı çörəklə ailəsinin, övladlarının dolanışığını təmin edir. Anası Həsənli Lumuna Fərhad qızı 1979-cu il oktyabr ayının 1-də anadan olub, evdar qadındır. Bacıları Həsənli Təhminə 20 yaşındadı, Gəncə Dövlət Universitetinin tələbəsidir. Həsənli Ləman 18 yaşındadır, gözəllik salonunda çalışır. Qardaşı Sabitzadə Hüseyn 7 yaşındadır, 1-ci sinif şagirdidir.

Biz də öz redaksiyamız adından Aksanaya bol-bol uğur və parlaq gələcək arzulayırıq. Arzu edirik ki, seçdiyi peşənin sayılıb-seçilən mütəxəssislərindən olsun, vətənə, millətə xeyirli övlad olsun. Öz uğurları ilə daim valideynlərinin və müəllimlərinin fəxri olsun.



# "Musiqi təhsilli Qızıl Şagird"

## BƏYLƏROV ÜLVİ









**Hər bir dövlətin gələcəyi onun malik olduğu elmi-intellektual potensialdan asılıdır. Milli tərəqqini təmin edən elm və təhsil cəmiyyət qarşısında duran bir çox problemlərin həllində mayak rolunu oynayır.**

***(Heydər Əliyev)***



FƏXRİ FƏRMAN

Bu gün təhsil sistemi gələcək mütəxəssislər tərəfindən hazırlanır. Təhsil vasitəsilə insanlar bilik və bacarıq əldə edirlər ki, bu da onların məhsuldarlığını artırır.İnsan kapitalı nəzəriyyəsinin inkişaf etdiyi cəmiyyətlərdə belə bir fikir öz təsdiqini tapıb, daha yüksək təhsil alan şəxs həqiqətən də yüksək gəlir əldə edir. Azərbaycanın sivil dünyaya inteqrasiyası və ölkədə sosial-iqtisadi inkişafın təmin olunması daha çox elmin və təhsilin inkişafından yeni elmi biliklərin texnika və texnologiyaların mənimsənilmə səviyyəsindən asılıdır.

Müsahibimiz Bəylərov Ülvi Habil oğlu 2005-ci il iyulun 4 də Bərdə şəhərində dünyaya gəlib. O, 2011-ci ildə Ağdam rayon 12 saylı tam orta məktəbə daxil olub. Hazırda bu çalışqan bala həmin məktəbin 7-ci sinifində öz təhsilini davam etdirir.Təhsil yolunun çətin olduğu qədər şərəfli olduğunu deyən gənc müsahib bildirir ki, indiyə qədər öyrəndiklərinə görə məktəbə, sevimli müəllimlərinə minnətdardı. Bütün fənləri sevən və məsuliyyətlə hazırlaşan Ülvinin ən sevimli fənləri Azərbaycan dili, riyaziyyat və biologiyadır. Xüsusilə də təbiət elmi olan biologiya fənninə xüsusi marağı var.Ən çox sevdiyi və rəğbət bəslədiyi müəllimlər isə Gülnar, Vəfa, Lalə və Gülgəz adlı müəllimləridir. Bacarıqlı və çalışqan şagirdimizin istər təhsil sahəsi olsun, istərsə də musiqi sahəsində böyük uğurları olmuşdur. 2016-cı ildə Ülvi sinfin əlaçıları sırasına daxil olmuş ona verilən bütün tapşırıqları məsuliyyətlə yerinə yetirmiş, dərslərinə hər zaman hazır olması və mədəni davranışı ilə fərqlənmişdir. Əldə etdiyi bu nailiyyətlərə görə "Tərifnamə" ilə təltif edilmişdir. 2017-ci ildə isə bilik yarışında əldə etdiyi yüksək nailiyyətinə görə "Fəxri Fərman"la təltif edilmişdir. 2017-2018-ci tədris illərdə məktəbdə təşkil edilmiş "Ümumi fənlər üzrə bilik yarışında" yüksək nəticəsinə görə "Qızıl şagird" "Fəxri Fərmanı" ilə təltif olunmuşdur. Musiqiyə böyük marağı olan Ülvi həvəskar qarmon ifaçısıdır. Hətta demək olar ki, bu onun ən sevimli məşğuliyyətlərindən biridir.Ülvinin gələcəkdə ən böyük arzusu yüksək bal toplayıb Ali tibb universitetinin həkim-stamatoloq fakültəsinə daxil olmaq, öz biliyi və əzmi ilə oxumaq və oxuduğu müddət ərzində praktikalarda iştirak etmək və daha çox təcrübə toplamaqdır. Və Ülvi inanır ki , əgər dərslərinə hər zaman diqqətlə yanaşsa öz məqsədinə çatacaq. Ülvinin uğurlarında hər zaman onun yanında olan, ona daim dəstək olan ailəsidir. Evin tək övladı olan Ülvinin ailəsi 2 nəfərdən ibarətdir.



TƏRİFNAMƏ

Atası Bəylərov Habil Bəylər oğlu 10 iyul 1975-ci ildə Ağdam rayonunun Güllücə kəndində anadan olub. Hazırda ticarətlə məşğul olaraq öz halal zəhməti ilə ailəsini dolandırır. Habil bəy oğlunun gələcəyinin parlaq olması, onun yaxşı təhsil alması üçün əlindən gələni əsirgəmir.

Anası Bəylərova Akifə Səyyaf qızı 13 aprel 1976-cı ildə Beyləqan rayonunun Aşıqlı kəndində anadan olub. Hazırda evdar xanımdır.

Ülvi balamız sənə öz kollektivimiz adından uğurlar arzulayırıq. Seçdiyin peşə sənə bol-bol nailiyyətlər qazandırsın. Ailən, müəllimlərin səninlə hər zaman qürur duysun.



"QIZIL ŞAGİRD"

# "Təbiətcə üsyankar, istəyidir olmaq həkim peşəkar"

# Tağıyev Kənan







**"Təhsilli insanlar əvvəlcə ədalətə dəyər verər. Təhsilli insanlar ədalət olmadan cəsarət sahibi olarsa üsyankar olarlar. Kiçik insanlar ədalət olmadan cəsarət sahibi olarsa quldur olarlar"**

***(Konfutsi)***

Təhsili cəmiyyətin fəal hərəkətverici, inkişafetdirici qüvvəsinə çevirənlər isə məhz müəllimlərdir. Təhsilin məzmunu nə qədər yüksək və mükəmməl, maddi-texniki bazası nə qədər möhkəm, biliklərin ötürülməsi vasitələri nə qədər təkmil və müasir olsa da, əgər müəllim yoxdursa, heç nədir. Təhsil məhz müəllim əqlinin gücü ilə cəmiyyətin inkişaf amilinə çevrilir, biliklərin, mədəniyyətlərin, milli adət-ənənələrin daşıyıcısı olan yeni-yeni nəsillər məhz müəllim zəkasının nurundan, müəllim qəlbinin hərarətindən pay alaraq formalaşır. Bu baxımdan müəllim təhsildə əsas sima, aparıcı qüvvədir.

Haqqında danışacağımız şagird öz təlim-tərbiyəsi ilə və müəllimlərinə hörməti ilə seçilməyi bacarmış Tağıyev Kənan Taleh oğludur. Tağıyev Kənan Taleh oğlu 2006-cı il avqust ayının 20-də Bərdə rayon Gərənə kəndində dünyaya öz açıb. Kənan 2012-ci il sentyabr ayının 15-də Bərdə rayon Gərənə kənd Hafiz Zeynalov adına Gərənə kənd tam orta məktəbin 1-ci sinifində təhsil almağa başlamışdır. Hazırda Kənan həmin məktəbin 7-ci sinifində təhsilini müvəffəqiyyətlə davam etdirir. Məktəbə başladığı ilk gündən müəllimlərinin sevgisini qazanmış ağıllı bala bütün dərslərini əla qiymətlərlə oxuyur, sinifdə seçilməyi bacarır. Kənan hesablamağı, məntiqi misallar həll etməyi çox sevir. Dəqiq fənləri çox sevən Kənanın ən sevdiyi dərs riyaziyyat, ən çox rəğbət bəslədiyi müəllimi Sarıtel müəllimdir. Əziyyətinin qarşılığı olaraq Kənan birinci sinifdən etibarən sinif birincisidir. Dərslərini əla qiymətlərlə oxuyan Kənan şahmatla da maraqlanır. O, məktəb üzrə keçirilmiş yarışda şahmat üzrə 1-ci yerə çıxıb. Kənanın ən böyük arzusu orta məktəbi uğurla başa vurub Azərbaycan Tibb Universitetinə daxil olaraq həkimlik peşəsi üzrə ixtisaslaşaraq öz şəfalı əlləri ilə insanların tibbi sağlamlığının qayğısına qalmaqdır. Həkim olmağın məsuliyyətini dərk edən Kənan valideynlərinin və müəllimlərinin ona olan ümüdlərini doğrultmaq üçün var gücüylə çalışır, daha çox mütaliə edir. Valideynləri də Kənanı bu mövzuda dəstəkləyir və əllərindən gələni əsirgəmirlər.

Evin tək övladı olan Kənan atasını çox sevir. Onun atası Tağıyev Taleh 1984-cü ildə Ağdam rayon Xındırıstan kəndində anadan olub, qəssab işləyir. O da oğlunu həm çox sevir, həm də onunla nəfəs alır. Hər zaman çalışır ki, oğluna layiq ata, övladına layiqli valideyn olsun, onun qayğıları ilə maraqlanıb, öz valideynlik borcunu yerinə yetirsin. Anası Səfərova Şahnaz 1981-ci ildə Bərdə rayon Gərənə kəndində doğulub , evdar qadındır. Övladlarından diqqət və qayğısını əsirgəmir. Atasının və anasının bütün diqqəti,sevgisi və qayğısı məhz Kənanla birlikdədir.

Ailəsinin ən böyük arzusu gələcəkdə övladlarının seçdiyi peşədən asılı olmayaraq həmin peşənin sayılıb seçilən, öz sözünü demiş mütəxəssislərindən olmasını arzu edirlər. Biz də öz redaksiyamız adından ailəsinin arzusuna qoşulur, Kənana uğur və nailiyyətlər diləyirik. Həyatda daim qazandığı uğurlarla ailəsinin və sevdiklərinin başını uca tutsun. Xalqına, millətinə daim xeyirli övlad olsun.





# "Səyahətsevər əlaçı"

# Fərəczadə Tamerlan











**"Nadanlar elmə həqarətlə baxır, savadsızlar ona heyran olur, müdriklər isə ondan bəhrələnir"**

**(Frensis Bekon)**

Elm bitməyən tükənməyən elə bir xəzinədir ki, axtardıqca, araşdırdıqca insan kamilləşir, gözəlləşir. Həmin insanda bütün əxlaqi keyfiyyətlər formalaşır. Kim istəməz ki, övladı bu cür yetişsin?! Əlbəttə, hamı bunu istəyər. Amma bəzən istəməklə kifayətlənmək olmur, çalışmaqla, çaba sərf etməklə bu əldə olunur. Tamerlan da belə bir ailədə doğulduğu üçün çox şanslıdır. Elə isə bu istedadlı və nümunəvi məktəblini yaxından tanıyaq.

Fərəczadə Tamerlan Rizvan oğlu 29 iyun 2005-ci ildə Türkiyənin, eləcə də dünyanın ən gözəl şəhərlərindən biri olan İstanbulda ziyalı və sadə bir ailədə dünyaya göz açıb. Tamerlan Fərəcovlar ailəsinin yeganə oğludur. O, 5 yaşına qədər İstanbulda yaşasa da, anası deyir ki, İstanbulu qarış-qarış tanıyır. Yəni güclü bir yaddaşa, zehni qabiliyyətə malikdir. 2011-ci ildən Bakıda, Buzovna qəsəbəsində yerləşən 26 saylı tam orta məktəbin 1-ci sinfinə gedən Tamerlan Fərəczadə 3-cü sinfə qədər orda oxuduqdan sonra təhsilini Ağdam rayon 42 saylı tam orta məktəbdə davam edib. Hazırda Ağdam rayon 42 saylı tam orta məktəbin 8-ci sinif şagirdidir. Dərsdə fəal şagirdlərdən olmaqla yanaşı, təlim-tərbiyəsinə görə müəllimlərinin də sevimlisidir. Onun ilk müəllimi Reyhanə müəllim olub və hələ də ailəvi olaraq Fərəcovlar bu müəllimi çox sevir, xətrini əziz tutur. Hazırda isə ən çox sevdiyi müəllimləri Məlahət, Elzona və Gülnurə adlı müəllimləridir ki, məhz onların tədris etdiyi riyaziyyat, tarix, coğrafiya onun ən sevdiyi fənləridir. Onun indiyə qədər bir çox uğur və nailiyyətləri olub ki, dərslərində əlaçı olması və məktəb nəzdində təşkil olunan bir sıra tədbirlərdə aktiv iştirakına görə "Fəxri Fərman"la mükafatlandırılıb. Onlardan biri doğma ana dilimizlə bağlı "Ana Dili Milli Varlığımızdır", digəri isə "Tarix-Coğrafiya" gecəsindəki fəal iştirakına görə olub. Fərəczadə elmi, maraqlı araşdırmalar aparmağa meyillidir. Anası ilə həmsöhbət olarkən maraqlı bir məlumat verdi ki, Tamerlan 1-ci sinifdən 8-ci sinfə qədər qiymət kitabçasında bir dənə də olsa yaxşı qiyməti olmayıb, əksinə hamısı əla olub. Demək o, sinfinin yaxşısı deyil, sadəcə əlaçısıdır. Xasiyyətcə sakit təbiətli, həlim və olduqca mehriban olan Tamerlan valideynlərinə qarşı da məsuliyyətli, istiqanlı və səmimidir. Anası Səadət xanım deyir ki, oğlum yaxşı yol yoldaşı, mehriban dostdur. İnsanları və heyvanları sevdiyindən nə incitmək istəyər, nə də xətrinə dəymək. Onun maraqlı hobbiləri və gündəlik məşğuliyyəti var. Tamerlan boş vaxtlarını səmərəli keçirdərək bir çox yerləri gəzərək yeni-yeni məlumatlar toplayır, kitab mütaliə edir, dostları ilə şahmat və futbol oynayır. Təbii ki, bu onun dünyagörüşü və inkişafı üçün ciddi stimuldur. Anası ilə birlikdə Tamerlan Bakının heyrətamiz tarixi abidələrini, görməli yerlərini, tarixi muzeyləri qarış-qarış gəzmiş və bundan zövq almışdır. Təbii ki, bu da onun tarix və səyahətsevər olması ilə bağlıdır. Hətta səyahət etdiyi məkanlardan Tamerlan bələdçilərdən aldığı məlumatları isə dəftərçəsinə qeyd edərək xatirə kimi saxlayır. O, gəzdiyi yerlərdən aldığı bütün maraqlı, elmi faktları qeyd dəftərçəsinə yazır. Digər zamanlarında isə o, dostları ilə birlikdə futbol oynamağı çox sevir. Valideynləri Tamerlanın uğur və nailiyyətlərinə görə müəllimlərinə hər zaman təşəkkür edir. Yaxşı müəllim parlaq gələcəyə yeni bir ümid, inam qığılcımıdır. Dərslərində əlaçı olan Tamerlan çalışır ki, orta məktəbi sonadək uğurlu bitirib anası kimi savadlı və öz işində bacarıqlı mühasib olsun. Hətta anası deyir ki, indidən ona bu peşənin sirr və xırdalıqlarını öyrədir və hətta onun əvəzinə bir sıra maliyyə və vergi hesablama sisteminə uyğun prosedurları özü həyata keçirir.

Bir qədər də onun ailəsi haqqında danışaq. Ailədə 3 nəfərdirlər. Atası Fərəczadə Rizvan Sarı oğlu 1969-cu il avqustun 13-də anadan olub, aşpaz işləyərək Azərbaycan mətbəxinin bütün gözəl yeməklərini bişirir və tanıdır. Anası Fərəcova Səadət İnqilab qızı yüksək ali təhsillidir. Ali təhsilin rus dili və ədəbiyyatı ixtisası üzrə bakalavr və magistr dərəcəsini bitirməklə yanaşı, ehtiyyatda olan hərbi tibb bacısıdır. Eyni zamanda mühasib ixtisası üzrə kurslar keçərək bilik dairəsini genişləndirməklə bərabər bu sahə üzrə də hazırda çalışır.

Biz də redaksiya heyəti adından Tamerlana can sağlığı və uğurlu təhsil həyatı arzulayırıq.Təməli necə qoysan həyatının sonu da elə uğurlu olar. Odur ki, yüksək ali təhsil alıb gələcəyə inamla addımlayan uğurlu mövqe sahiblərindən biri olmaqla yanaşı, heç bir zaman insanlıq və təbiətsevərliyinin itməməsi diləyi ilə Tamerlana peşə və şəxsi həyat uğurları diləyirik!

# "Jurnalist olmaq istəyən istedadlı məktəbli"

# Aygün Göyüşova





**“Elə adamlar axtarın ki,onlarla söhbət yaxşı kitablara bərabər olsun,**

**Elə kitablar axtarın ki,mütaliəsi filosoflarla söhbətə dəysin”**

***(Əbülhəsən Bəhmənyar)***

Yüksək əqli imkanlara və bacarıqlara malik olan uşaqlar var, lakin onlar dəcəlliyi və inadkarlığı üzündən hamı onları inkar edir,yararsız hesab edir. Bu uşaqlara düzgün yanaşmanı tapıb tərbiyyə etsək ,onlar dahi olaraq böyüyərlər. Tərbiyə evdən başlayır, məktəbdə təkmilləşir. Ona görə də məktəbə ilk qədəmlərini qoyan şagirdlərlə elə pedaqoji ustalığa sahib olan müəllimlər işləməlidir ki,şagirdlərdə başqalarının görə bilmədiklərin ortaya çıxarıb insanlara fayda verəcək vətəndaşlar yetişsin.

Jurnalımızın bu sayında istedadı baxımından yaşıdlarından seçilməyi bacaran və istedadlı şagirdlərdən olan Aygün Göyüşova haqqında yazını oxucularımıza təqdim edirik. Aygün Göyüşova Arzuman qızı 2007-ci ildə avqust ayının 13-də Bərdə şəhər Alpoud kəndində anadan olub. O,2014-cü ildə Bərdə şəhər Nazim Hüseynov adına Alpoud kənd tam orta məktəbin 1-ci sinifində təhsil həyatına qədəm qoymuşdur. Hazırda həmin məktəbin 6-cı sinifində təhsil alır. O,öz məktəbinin istedadlı və qabaqcıl şagirdi olaraq tanınır. Bütün dərslərinə daim hazırlıqlı olan məsuliyyətli Aygün məhz bu xüsusiyyəti ilə müəllimlərinin rəğbətini qazanmışdır. O, bütün dərslərində aktiv,fəaldır. Ən sevdiyi fənlər Azərbaycan dili,riyaziyyat və fizika dərsləridir ki, onun dəqiq elmlərə xüsusi marağı və mənimsəmə qabiliyyəti var. Ən sevdiyi müəllimləri isə Təranə, Gülafət ,Südabə, İradə, Səfayə, Ceyran, Şəhla, Nailə adlı müəllimləridir. Aygün adı çəkilən müəllimlərinin hər birinin zəhmətkeş və istedadlı olduqlarını vurğulayır. Aygün qeyd edir ki, o müəllimlərini çox sevir və onların tapşırıqlarını məmnuniyyətlə yerinə yetirir. Aygünün ən böyük arzusu məktəbi uğurla başa vurub jurnalistika ixtisasına qəbul olaraq bu sahədə peşəkar jurnalist kimi yetişmək və bu ixtisasla cəmiyyətin görən gözü,eşidən qulağı,yazan əli olmaqdır. O, seçdiyi peşənin məsuliyyətini dərk edir. O, jurnalist peşəsinin bəsitləşdirildiyi indiki dövrdə cəmiyyətimiz üçün doğru məlumatları xalqdan alıb düzgün şəkildə paylaşmağı bacaran vicdanlı jurnalistlərin yetişdirilməsinin vacibliyini vurğulayır və özü də həqiqətə xidmət edəcək bir peşəkar jurnalist kimi çalışmaq niyyətindədir. Odur ki, məqsədinə çatmaq üçün çox çalışır. Aygün bir neçə dəfə dərslərini əla oxuduğu üçün məktəb rəhbərliyi tərəfindən tərifnamələrlə mükafatlandırılıb, zəhməti və məsuliyyəti dəyərləndirilib. Çalışqan şagird olan Aygün ailəsinə və valideynlərinə söz verib ki,vətəninə xalqına fayda vermək üçün çox çalışacaq, onların ümidlərini doğruldacaq. Məqsədinə çatmaq üçün Aygün çox çalışır, boş vaxtlarında kitab oxuyur,müxtəlif maraqlı rəsmlər çəkir. Dərsləri ilə məşğul olur, hətta evdə ailəsinə də kömək edir.

Nümunəvi şagirdimiz olan Aygünün ailəsi 5 nəfərdən ibarətdir. Atası Göyüşov Arzuman Yusif oğlu 1981-ci ildə ölkəmizin düşmən tapdağı alında olan gözəl guşələrindən olan Kəlbəcər rayonu Bozlu kəndində anadan olmuşdur, o,təsərrüfat işləri ilə məşğul olur.Halal əl zəhməti ilə ailəsini dolandırır. Anası Tərlan Göyüşova Ələkbər qızı 1987-ci ildə anadan olmuşdur,evdar qadındır. Övladlarının təlim-tərbiyəsi və təhsili ilə yaxından məşğul olur və onların gələcəyi üçün əlindən gələni əsirgəmir. Bacısı Günay Göyüşova 2008-ci ildə anadan olmuşdur, məktəblidir, 6-cı sinifdə oxuyur. Qardaşı Göyüşov Röyal 2016-cı ildə anadan olub, azyaşlıdır.

Biz də öz adımızdan Aygünü təbrik edir, gələcək həyatında uğur və nailiyyətlərinin bol olmasını diləyirik. Həmişə qazandığı uğurlarla ailəsinin başını uca tutsun.



